**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

6 iyun 2026-cı il №20 (9174) www.muallim.edu.az muallim@media.edu.az

## PREZİDENT İLHAM ƏLİYEV AZADLIĞA DƏSTƏK AKTINA 907-Cİ DÜZƏLİŞİN DAYANDIRILMASI MÜDDƏTİNİN UZADILMASI İLƏ BAĞLI MEMORANDUMA GÖRƏ DONALD TRAMPA TƏŞƏKKÜR EDİB




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azadlığa Dəstək Aktının 907-ci maddəsinin ləğv müddətinin uzadılması haqqında memorandumla bağlı sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir:

*"Möhtərəm Prezident Donald Tramp,*

*Azadlığa Dəstək Aktına 907-ci düzəlişin dayandırılması müddətinin uzadılması barədə memorandumu şəxsi qeydiniz və xoş sözlərinizlə birlikdə mənə xatirə hədiyyəsi olaraq göndərdiyiniz üçün Sizə səmimi təşəkkürümü bildirmək istəyirəm. Bu diqqətəlayiq jesti yüksək qiymətləndirir və ona böyük ehtiram bəsləyirəm".*

# Şərq-Qərb dəhlizinin yeni qolu olacaq Zəngəzur dəhlizi də inşa ediləcəkdir

**Biz cəmi 44 gün ərzində Ermənistanı tamamilə məğlub etdik və kapitulyasiya aktını imzalamağa məcbur etdik. Əlbəttə ki, müharibədə qələbə dedikdə, sadəcə, pul və hətta silahlar nəzərdə tutulmur. Söhbət döyüş ruhundan gedir. Lakin gəlin etiraf edək, ordunu qurmaq üçün pulumuz olmasaydı, yəqin ki, bu gün hələ də torpaqlarımız işğal altında olardı. Beləliklə, Azərbaycanın inkişafı, - istər sosial, iqtisadi, hərbi, istərsə də xarici siyasət olsun, - bütün bunlar onu nümayiş etdirir ki, təbii sərvətlərdən düzgün istifadə olunan zaman onlar bir çox üstünlüklərə yol aça bilər.**

**Şərq-Qərb dəhlizi uğurla fəaliyyət göstərir. Şübhəsiz ki, Şərq-Qərb dəhlizinin yeni qolu olacaq Zəngəzur dəhlizi də inşa ediləcəkdir. Bu, ötən il avqustun 8-də Ağ Evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti, Ermənistanın Baş naziri və mənim tərəfimdən imzalanmış sənədə əsaslanır. Bütün bunlar hamımız üçün böyük sərvətdir.**

*Prezident İlham Əliyevin "Bakı Enerji Həftəsi"nin rəsmi açılış mərasimindəki çıxışından (1 iyun 2026-cı il)*



### ABŞ Prezidenti Donald Tramp

**Bu nailiyyət Azərbaycanın enerji təhlükəsizliyi sahəsində göstərdiyi liderlik keyfiyyətlərinin sübutudur**

**"Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti hörmətli cənab İlham Əliyev. 31-ci "Bakı Enerji Həftəsi"ni keçirdiyiniz vaxtda Sizə və Azərbaycan xalqına öz təbriklərimi çatdırıram. Bu nailiyyət Azərbaycanın enerji təhlükəsizliyi sahəsində göstərdiyi liderlik keyfiyyətlərinin sübutudur. Biz Ağ Evdə görüşdüyümüz zaman irəliyə doğru addım atdıq və Ermənistan ilə Azərbaycan arasında uzunmüddətli sülhə nail olduq. Bildiyiniz kimi, regional enerji inteqrasiyası avqustun 8-də keçirilmiş tarixi sülh sammitinin əsas sütunudur".**



# Leyla Əliyeva və Arzu Əliyeva 11 nömrəli inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəbində olublar

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə 11 nömrəli inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəbində olublar.

AZƏRTAC xəbər verir ki, qonaqlar uşaqlarla görüşüb, onlara hədiyyələr təqdim ediblər.

Ümumtəhsil məktəbində onlar "Qurma" adlı art-studiya ilə tanış olublar. Burada xüsusi qayğıya ehtiyacı olan uşaqların hazırladıqları xalçalar, rəsm əsərləri və tikiş nümunələri nümayiş etdirilir.

Məktəbdə, həmçinin əyləncəli proqram təşkil olunub. Uşaqlar öz əl işlərini qonaqlara hədiyyə ediblər.



**Şimal-qərb bölgəsinin göstəriciləri yüksək nəticələr sırasındadır**
Bax səh.2

**Azərbaycan "OpenAI" ilə regionda ilk adaptiv öyrənmə platformasının hazırlanmasına başlayır**
Bax səh.3

**Kimya İnstitutunda aparılan islahatlar ciddi nəticələr verir**
Bax səh.5

**"Xaricdə təhsil almaq həm maraqlı, həm də çətin yoldur"**
Bax səh.6

# HƏSSAS YANAŞMA, VƏTƏNDAŞ MƏMNUNİYYƏTİ

## Nazir Qaxda vətəndaşları qəbul edib



**Mayın 26-da elm və təhsil naziri Emin Əmrullayev Qax şəhərində vətəndaş qəbulu keçirib.**

Qəbulda Qax, Şəki, Zaqatala və Balakən sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

# Emin Əmrullayev Tacikistan Respublikasının təhsil və elm naziri ilə görüşüb



**Mayın 23-də elm və təhsil naziri Emin Əmrullayev Tacikistan Respublikasının təhsil və elm naziri Rahim Saidzoda ilə görüşüb.**

Görüş çərçivəsində Tacikistan Respublikası ilə elm və təhsil sahəsində cari əməkdaşlıq və yaxın gələcəkdə icrası nəzərdə tutulan təşəbbüslər müzakirə edilib.

# Şagirdlər süni intellekt alətlərindən praktiki istifadə ediblər

## Elm və təhsil naziri Qaxda tədris prosesi ilə tanış olub





**Mayın 26-da elm və təhsil naziri Emin Əmrullayev Qax Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayevlə birgə Qax şəhərində yerləşən 5 nömrəli tam orta ümumtəhsil məktəbində olub.**

Səfər çərçivəsində məktəbdə yaradılmış şəraitlə tanışlıq olub, tədris prosesi izlənilib. Nazir peşə təmayüllü siniflərdə şagirdlərin praktiki bacarıqlarının inkişafına yönəlmiş fəaliyyətləri izləyib. Eyni zamanda rəqəmsal bacarıqlar üzrə təşkil olunan dərslərdə şagirdlərin süni intellekt alətlərindən praktiki istifadə imkanları təqdim olunub, bu istiqamətdə tətbiq olunan müasir tədris yanaşmaları barədə məlumat verilib.

Daha sonra nazir məktəbin pedaqoji kollektivi ilə də görüşüb, müəllimlərin tədris prosesinin təşkili, peşəkar inkişaf və təhsil mühitinin təkmilləşdirilməsi ilə bağlı fikir və təkliflərini dinləyib, müvafiq tövsiyə və tapşırıqlarını çatdırıb.

Görüş zamanı regionlarda keyfiyyətli təhsil imkanlarının genişləndirilməsi, şagirdlərin əmək bazarının tələblərinə uyğun bacarıqlar əldə etməsinin əhəmiyyəti vurğulanıb.




# Elm və təhsil naziri Gəncədə vətəndaşları qəbul edəcək

**Elm və təhsil naziri Emin Əmrullayev 12 iyun tarixində Gəncə şəhərində vətəndaşları qəbul edəcək.**

Qəbulda Gəncə, Samux və Kəlbəcər sakinləri iştirak edə bilərlər.

Adları çəkilən şəhər və rayonların sakinləri 8 iyun (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 11 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının https://edu.gov.az/az/contact_us bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə “WhatsApp” vasitəsilə müraciət göndərmək mümkündür.

Nəzərinizə çatdırırıq ki, qəbulda iştirak üçün qeydiyyat mütləqdir.

# Şimal-qərb bölgəsinin göstəriciləri yüksək nəticələr sırasındadır

## Nazir bölgə təhsil işçiləri ilə görüşüb





**Mayın 25-də elm və təhsil naziri Emin Əmrullayev Qax rayonuna səfəri çərçivəsində Şəki-Zaqatala Regional Təhsil İdarəsinin tabeliyindəki ümumtəhsil məktəblərinin bir qrup direktoru, məktəbəqədər təhsil müəssisələrinin müdirləri və qabaqcıl müəllimlərlə görüşüb.**

Görüş zamanı Emin Əmrullayev son illər təhsil sahəsində həyata keçirilən islahatlar və təhsilin məzmununun müasir çağırışlara uyğunlaşdırılması barədə danışıb. Nazir müəllimlərin sertifikatlaşdırılması, peşəkar inkişaf imkanlarının genişləndirilməsi, işə qəbul, eləcə də qiymətləndirmə və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində görülən işlər və qarşıda duran hədəflərə toxunub.

Çıxışının sonunda Emin Əmrullayev şimal-qərb bölgəsinin təhsil göstəricilərinin ölkə üzrə yüksək nəticələr sırasında yer aldığını vurğulayaraq müəllimlərə və təhsil müəssisələrinin rəhbərlərinə təşəkkür edib.

Görüşdə iştirakçıların rəy və təklifləri dinlənilib, çoxsaylı sualları cavablandırılıb.

Sonda görüş iştirakçıları ilə xatirə fotosu çəkilib.

# Peşə təhsili ölkənin iqtisadi inkişafı baxımından mühüm əhəmiyyət daşıyır

## Nazir İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzinin Qobustan korpusunda olub





**Mayın 25-də elm və təhsil naziri Emin Əmrullayev İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzinin Qobustan korpusunda olub.**

Səfər çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov və millət vəkili Şahin Seyidzadə ilə birgə korpusdakı mövcud emalatxanaların fəaliyyəti ilə tanış olub, tədris prosesini izləyib. Daha sonra planlaşdırılan yenidənqurma işləri və yaradılması nəzərdə tutulan yeni emalatxanalar barədə məlumat lövhəsinə baxış keçirilib.

Bildirilib ki, həyata keçiriləcək yeniliklər peşə təhsilinin keyfiyyətinin yüksəldilməsinə, tələbələrin praktiki bacarıqlarının inkişafına və əmək bazarının tələblərinə uyğun müasir tədris mühitinin formalaşdırılmasına xidmət edəcək.

Sonra nazir korpusun müəllim və tələbə heyəti ilə görüşüb. Görüş zamanı peşə təhsilinin inkişaf istiqamətləri, praktiki təlim imkanlarının genişləndirilməsi, müasir ixtisaslar üzrə kadr hazırlığı və tələbələrin məşğulluq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Emin Əmrullayev çıxışında peşə təhsilinin ölkənin iqtisadi inkişafı və əmək bazarının tələblərinə cavab verən insan kapitalının formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Nazir həmçinin müasir infrastrukturun yaradılması, innovativ yanaşmaların tətbiqi və istehsalatla inteqrasiyanın gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin davamlılığının vacibliyini qeyd edib.

Qeyd olunub ki, Qobustan korpusu region üzrə kənd təsərrüfatı və texniki istiqamətlərdə ixtisaslı kadr hazırlığını həyata keçirən struktur bölmə kimi fəaliyyət göstərir. Korpusda hazırda bitkiçilik mütəxəssisi, baytar texniki, dərzi, kompüterlərin təmiri üzrə texnik və geniş profilli traktorçu-maşinist ixtisasları üzrə tədris aparılır. 2025-2026-cı tədris ili üçün həmin ixtisaslar üzrə korpusa 78 nəfər tələbə qəbul olunub. 2026—2027-ci tədris ili üzrə mərkəz üzrə ayrılmış 660 sifariş yerinin 180-i Qobustan korpusu üçün nəzərdə tutulub.

Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktor müavini Simnar Mamedov korpusun fəaliyyəti, tədris prosesi, ixtisaslar, tələbə kontingenti və inkişaf perspektivləri barədə məlumat verib. Direktor müavini həmçinin peşə təhsilində praktiki bacarıqların gücləndirilməsi, müasir ixtisasların inkişafı və məzunların əmək bazarına inteqrasiyası istiqamətində görülən işlərdən bəhs edib.

Səfər zamanı korpusun gələcək inkişafı ilə bağlı müvafiq tapşırıq və tövsiyələr verilib.

# Nazir rəqəmsal texnologiyalar sahəsi üzrə Dövlət Proqramı məzunları ilə görüşüb





**İyunun 5-də elm və təhsil naziri Emin Əmrullayev 2022-2028-ci illər üçün Dövlət Proqramı çərçivəsində dünyanın nüfuzlu ali təhsil müəssisələrində kompüter elmləri, informasiya texnologiyaları, statistika və verilənlərin təhlili, süni intellekt, eləcə də mühəndislik istiqamətləri üzrə təhsil almış bir qrup gənclə görüşüb.**

Görüş zamanı nazir Dövlət Proqramının ölkənin insan kapitalının inkişafında mühüm rol oynadığını vurğulayaraq məzunların xaricdə qazandıqları bilik və bacarıqları Azərbaycanın texnoloji inkişafına, innovasiya ekosisteminin gücləndirilməsinə və rəqəmsal transformasiya proseslərinə töhfə vermək üçün səmərəli şəkildə tətbiq edəcəklərinə əminliyini ifadə edib.

Müzakirələr zamanı gənclərin peşəkar inkişaf perspektivləri, yüksək texnologiyalar sahəsində mövcud imkanlar, innovativ təşəbbüslərin təşviqi, eləcə də işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma layihələrində iştirak imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Görüşün sonunda nazir gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb və Dövlət Proqramı məzunları ilə bu cür görüşlərin davamlı xarakter daşıyacağını vurğulayıb.

# Azərbaycan "OpenAI" ilə regionda ilk adaptiv öyrənmə platformasının hazırlanmasına başlayır

**Elm və Təhsil Nazirliyi və "OpenAI" arasında adaptiv öyrənmə platformasının hazırlanması üzrə əməkdaşlığa başlanılıb. Platformanın "Rəqəmsal məktəb" layihəsi çərçivəsində hazırlanaraq tətbiq edilməsi nəzərdə tutulur.**




Elm və Təhsil Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və "OpenAI" arasında imzalanan Anlaşma Memorandumu 500 mindən çox şagird üçün süni intellekt əsaslı adaptiv öyrənmə imkanlarının yaradılmasını nəzərdə tutur.

Platforma mövcud milli təhsil proqramına inteqrasiya olunaraq süni intellekt əsaslı əlavə funksional alət kimi fəaliyyət göstərəcək. Hazırlanacaq həll şagirdlərin fərdi şəkildə bilik və bacarıqlarının diaqnostikasını aparmağa, dərs prosesində fərdiləşdirilmiş tapşırıqlar təqdim etməyə, hər bir şagirdin öyrənmə ehtiyaclarına uyğun süni intellekt əsaslı fərdi öyrənmə dəstəyi göstərməyə imkan verəcək. Platforma həmçinin müəllimlər, məktəb rəhbərləri və nazirlik üçün real vaxt rejimində fəaliyyət göstəricilərini təqdim etməyə imkan yaradacaq.

Tətbiq ilkin mərhələdə pilot layihə formatında həyata keçiriləcək və nəticələrə əsasən mərhələli şəkildə genişləndiriləcək. Platformanın tətbiqi müəllim nəzarəti, milli kurikuluma uyğunluq, davamlı qiymətləndirmə və məlumatların qorunması prinsipləri nəzərə alınmaqla aparılacaq.

İmzalanma zamanı elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, müəllim və şagirdlər üçün yeni süni intellekt alətlərindən səmərəli istifadə imkanı yaratmaqla bu texnologiyalardan məsuliyyətli tətbiq formalaşdırılır. "OpenAI" ilə əməkdaşlıq süni intellektin təhsilə inteqrasiyasını dəstəkləyir və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın prioritetləri ilə uzlaşır.

"OpenAI"nin Təhsil və dövlət proqramları üzrə bazara çıxış rəhbəri Kevin Mills isə qeyd edib ki, Azərbaycan süni intellektin təhsilə tətbiqinə düşünülmüş və iddialı yanaşma nümayiş etdirir. "OpenAI" ilə Elm və Təhsil Nazirliyinin tərəfdaşlığı güclü milli rəqəmsal infrastruktur və şagirdlərlə müəllimlərin süni intellektdən praktik və məsuliyyətli şəkildə istifadəsinə dəstək vermək öhdəliyi üzərində qurulur. O, "OpenAI"nin API texnologiyaları əsasında hazırlanacaq platformasının öyrənməyə dəstəyi, sinifdaxili təcrübəni gücləndirəcəyi və şagirdlərin gələcək üçün vacib bacarıqlarının formalaşmasına töhfə verəcəyi ilə bağlı araşdırması barədə də danışıb.

Əməkdaşlıq çərçivəsində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və "OpenAI" milli süni intellekt innovasiya ekosisteminin inkişafı istiqamətində birgə fəaliyyət göstərəcək. Qeyd olunan istiqamətdə hakatonların, "build days" formatlı tədbirlərin, eləcə də strukturlaşdırılmış tədqiqat və inkişaf əməkdaşlığının təşkili nəzərdə tutulur. Məqsəd Azərbaycanın süni intellekt əsaslı həllər üzrə regional mərkəz kimi mövqeyini gücləndirməkdir.

# "Ana dili: kimlik və gələcək"

## Gənclərin iştirakı ilə respublika konfransı keçirilib

**Mayın 25-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "Ana dili: kimlik və gələcək" mövzusunda gənclərin iştirakı ilə respublika konfransı keçirilib. Konfrans Elm və Təhsil Nazirliyi və Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilatçılığı, Azərbaycan Milli Elmlər Akademiyasının dəstəyi ilə təşkil olunub.**




Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Açılış mərasimində çıxış edən AMEA prezidenti İsa Həbibbəyli Azərbaycan dilinin saflığının qorunmasında nitq mədəniyyətinin xüsusi rolunu vurğulayıb, bütün sahələrdə ədəbi dil normalarına riayət edilməsinin vacibliyini qeyd edib. O həmçinin AMEA-da müstəqillik dövrünün prinsipləri əsasında Azərbaycan dili qrammatikasının yeni konseptual model üzrə hazırlanması istiqamətində işlərin davam etdirildiyini bildirib.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov çıxışı zamanı ana dilinin dövlətçilik, milli kimlik və mədəni təhlükəsizlik baxımından xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. O bildirib ki, qloballaşma, informasiya texnologiyalarının, süni intellektin sürətli inkişafı və kütləvi kommunikasiya vasitələrinin təsiri nəticəsində milli dillər yeni çağırışlarla qarşılaşır. Nazir müavininin sözlərinə görə, ana dilinin unudulması və onun həddindən artıq alınma sözlərlə yüklənməsi milli şüura və milli kimliyə təsirsiz ötüşmür. Bu baxımdan ana dilinin qorunması yalnız dil məsələsi deyil, həm də milli özünüdərk, mənəvi dəyərlərin yaşadılması və cəmiyyətin gələcəyi ilə bağlı mühüm məsələdir.

Firudin Qurbanov qeyd edib ki, ana dili insanın dünyagörüşünün formalaşmasında, mənəvi aləminin zənginləşməsində, keyfiyyətli təhsil almasında və milli mənsubiyyətinin ifadəsində mühüm rol oynayır.

ADPU-nun rektoru Cəfər Cəfərov isə ana dilini sevən və dərindən bilən müəllimin milli dəyərlərə bağlı, vətənpərvər vətəndaş yetişdirdiyini qeyd edib. O bildirib ki, dilin qorunması və gələcək nəsillərə ötürülməsi hər bir alim, müəllim və tədqiqatçının mühüm məsuliyyətidir.

ADPU-nun prorektoru Mahirə Hüseynova çıxışında Azərbaycan dilinin milli kimliyin formalaşmasında mühüm rolundan danışıb, dilçilik sahəsində mövcud məsələlərin həllində gənc tədqiqatçıların elmi fəaliyyətinin əhəmiyyətini vurğulayıb. O həmçinin tarixi toponimlərin və dialektizmlərin milli yaddaşın qorunmasındakı roluna diqqət çəkib.



Açılış mərasimində çıxış edən digər iştirakçılar tərəfindən Azərbaycan dilinin tarixi inkişaf yolu, müasir çağırışlar şəraitində dil siyasəti, rəqəmsallaşma dövründə ana dilinin qorunması, gənclərin nitq mədəniyyəti və dilə bağlılığının artırılması məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Çıxışlarda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ana dilinin qorunması, inkişaf etdirilməsi və beynəlxalq müstəvidə təbliği istiqamətində həyata keçirilən ardıcıl dövlət siyasətinin əhəmiyyəti xüsusi vurğulanıb. Qeyd olunub ki, bu istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirlər Azərbaycan dilinin saflığının qorunmasına, norma və qaydalarına riayət olunmasına, eləcə də rəqəmsal mühitdə mövqeyinin gücləndirilməsinə mühüm töhfə verir.

Rəsmi hissədən sonra konfrans panel müzakirələrlə davam edib. Panel sessiyalarında ana dilinin milli kimliyin formalaşmasındakı rolu, gələcək perspektivləri və rəqəmsal transformasiya dövründə Azərbaycan dilinin mövqeyi ilə bağlı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, konfransın məqsədi dövlət dilinin qorunması və inkişaf etdirilməsi, gənclər arasında ana dilinə hörmət və bağlılığın gücləndirilməsi, Azərbaycan dilinin milli kimliyin və milli-mənəvi dəyərlərin formalaşmasındakı rolunun təşviqindən ibarətdir.

# Firudin Qurbanov Azərbaycan və Belarus arasında Birgə Hökumətlərarası Komissiyanın 16-cı iclasında iştirak edib

**İyunun 2-də elm və təhsil nazirinin müavini Firudin Qurbanov Minsk şəhərində keçirilən Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 16-cı iclasında iştirak edib. İclas çərçivəsində Azərbaycan və Belarus arasında ticarət-iqtisadi, sənaye, nəqliyyat, tikinti, kənd təsərrüfatı, humanitar və digər istiqamətlər üzrə əməkdaşlığın mövcud vəziyyəti, eləcə də gələcək inkişaf perspektivləri müzakirə olunub.**



İclasda çıxış edən nazir müavini iki ölkə arasında elm və təhsil, xüsusilə peşə təhsili və ali təhsil sahəsində əməkdaşlıq məsələlərinə toxunub. Firudin Qurbanov həmçinin Azərbaycanın ali təhsil müəssisələrində fəaliyyət göstərən Belarus dili və mədəniyyəti mərkəzlərinin, eləcə də Belarusda fəaliyyət göstərən Azərbaycan dili və mədəniyyəti mərkəzlərinin iki xalq arasında mədəni əlaqələrin möhkəmləndirilməsi, dillərin tədrisi və yüksəkixtisaslı kadrların hazırlanması baxımından mühüm rol oynadığını diqqətə çatdırıb.

Nazir müavini çıxışında elm və təhsil sahəsində qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsi, birgə elmi tədqiqat layihələrinin həyata keçirilməsi, birgə təhsil proqramlarının dəstəklənməsi, ali və peşə təhsili müəssisələri arasında əməkdaşlığın inkişaf etdirilməsi, tələbə və elmi-akademik heyətin mübadiləsi, o cümlədən Qarabağ Universitetinə Belarusdan olan tələbə və müəllimlərin cəlb edilməsi istiqamətində bir sıra təkliflər irəli sürüb.

Yekunda komissiyanın həmsədrləri tərəfindən iclasın nəticələrinə dair protokol imzalanıb.

# Nazir müavini Belarus Respublikasına səfəri çərçivəsində bir sıra görüşlər keçirib





**Elm və təhsil nazirinin müavini Firudin Qurbanov Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 16-cı iclası çərçivəsində Belarus Respublikasına səfəri zamanı bu ölkənin təhsil naziri Andrey İvanets ilə görüşüb. Görüşdə elm və təhsil, o cümlədən ümumi, peşə və ali təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və yaxın gələcəkdə icrası nəzərdə tutulan təşəbbüslər ətrafında fikir mübadiləsi aparılıb. Görüş zamanı Qarabağ Universiteti ilə Belarus Respublikasının aparıcı ali təhsil müəssisələri arasında əməkdaşlıq istiqamətləri müəyyənləşdirilib.**

Nazir müavini həmçinin Maksim Tank adına Belarus Dövlət Pedaqoji Universiteti ziyarət edib. Firudin Qurbanov universitetin rektoru Aleksandr Juk və Belarus Respublikasının təhsil nazirinin birinci müavini Aleksandr Baxanoviçin müşayiəti ilə universitetdə yerləşən Tədris Robototexnikası Respublika Resurs Mərkəzi, idman kompleksi, kitabxana sistemi, rəqəmsal elektronika tədris laboratoriyasına baxış keçirib.

Daha sonra nazir müavini həmin universitetdə fəaliyyət göstərən Azərbaycan dili və mədəniyyəti mərkəzini ziyarət edib. Mərkəzdə yaradılmış şəraitlə tanış olan Firudin Qurbanov burada Azərbaycan dili, tarixi və mədəniyyətinin təbliği istiqamətində həyata keçirilən fəaliyyətləri yüksək qiymətləndirib. O, mərkəzə Qarabağ irsi və mədəniyyətinə dair kitablar hədiyyə edib.

Firudin Qurbanov Azərbaycan dili və mədəniyyəti mərkəzində Belarus Respublikasında təhsil alan azərbaycanlı tələbələr ilə görüşüb. Görüş zamanı nazir müavini tələbələrin həm təhsil aldıqları ölkədə, həm də beynəlxalq akademik mühitdə Azərbaycanı layiqincə təmsil edəcəklərinə əminliyini ifadə edib. O, Azərbaycan və Belarus ali təhsil müəssisələri arasında əlaqələrin dinamik şəkildə inkişaf etdiyini vurğulayaraq bu əməkdaşlığın tələbələr üçün yaratdığı imkanlardan bəhs edib. Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb və onların təklifləri dinlənilib.

# Nazir müavini Rusiya Federasiyasının Tatarıstan Respublikasının sənaye və ticarət nazirinin müavini ilə görüşüb



**İyunun 2-də elm və təhsil nazirinin müavini İdris İsayev Rusiya Federasiyasının Tatarıstan Respublikasının sənaye və ticarət nazirinin müavini Marat Minibayev ilə görüşüb.**

Görüşdə iki ölkə arasında elm və təhsil sahəsində cari əməkdaşlıq və əlaqələrin inkişaf perspektivləri müzakirə olunub, həmçinin təhsilin rəqəmsallaşdırılması sahəsində tərəfdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.

# Afrika ölkələri ilə təhsil sahəsində əməkdaşlıq genişləndirilir

**Mayın 25-də Xarici İşlər Nazirliyi, Bakı Dövlət Universiteti, Qoşulmama Hərəkatı Gənclər Təşkilatı və Afrika ölkələrinin Azərbaycanda akkreditə olunmuş səfirlikləri ilə birgə "Afrika Günü"nə həsr olunmuş beynəlxalq konfrans təşkil olunub.**



**Elm və təhsil nazirinin müavini "Afrika Günü"nə həsr olunmuş beynəlxalq konfransda iştirak edib**



Konfransın açılış mərasimində xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, elm və təhsil nazirinin müavini Kənan Kərimzadə, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, eləcə də Mərakeş Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Adil Embarch çıxış ediblər.

Tədbirdə Afrika qitəsi ölkələrinin Azərbaycanda akkreditə olunmuş səfirləri, Milli Məclisin deputatları, aidiyyəti dövlət qurumlarının nümayəndələri, ali təhsil müəssisələrinin rəhbərləri, ekspertlər və ölkəmizdə təhsil alan afrikalı tələbələr iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən elm və təhsil nazirinin müavini Kənan Kərimzadə bildirib ki, hazırda 40 Afrika ölkəsindən 360-dan çox tələbə Azərbaycanın ali təhsil müəssisələrində təhsil alır. Nazir müavini afrikalı tələbələr üçün təqdim olunan təqaüd imkanlarını xüsusi vurğulayıb.

Sonda nazir müavini Afrika ölkələri ilə təhsil sahəsində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini qeyd edib, bu istiqamətdə əlaqələrin daha da gücləndirilməsinin vacibliyini diqqətə çatdırıb.

Çıxış edən digər rəsmilər Azərbaycan ilə Afrika ölkələri arasında diplomatik, təhsil və humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin önəmini vurğulayaraq bu cür tədbirlərin qarşılıqlı əlaqələrin möhkəmlənməsinə mühüm töhfə verdiyini bildiriblər.

# Elm və Təhsil Nazirliyi və "Microsoft" ali təhsil müəssisələrində rəqəmsal alətlərə çıxışı genişləndirir

**Elm və Təhsil Nazirliyi ilə "Microsoft" arasında həyata keçirilən əməkdaşlıq çərçivəsində ali təhsil müəssisələrində vahid rəqəmsal ekosistemin formalaşdırılması işləri davam etdirilir. Birgə fəaliyyət universitetlərin müəllim, tələbə və inzibati heyətinin müasir rəqəmsal alətlərə çıxış imkanlarının genişləndirilməsinə, tədris və idarəetmə prosesində rəqəmsal həllərin tətbiqinə xidmət edir.**

Mərkəzləşdirilmiş yanaşma çərçivəsində ümumilikdə 20 ali təhsil müəssisəsinin lisenziyalı "Microsoft" alətləri ilə təmin olunması nəzərdə tutulur. Hazırda Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Texniki Universiteti, Qarabağ Universiteti, Gəncə Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Texnologiya Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Mingəçevir Dövlət Universitetində bütün texniki və təşkilati işlər tamamlanıb, "Microsoft" həlləri istifadəyə verilib. Digər ali təhsil müəssisələrində isə qoşulma prosesi mərhələli şəkildə davam etdirilir.

"Microsoft" platformasında təqdim olunan süni intellekt əsaslı həllər, xüsusilə "Copilot" aləti müəllimlərə dərs planlarının hazırlanması, tədris materiallarının yaradılması, qiymətləndirmə və digər akademik fəaliyyətlərin daha səmərəli təşkili üçün əlavə imkanlar yaradır. Süni intellekt alətlərinin tətbiqi müəllimlərin iş yükünün optimallaşdırılmasına və tədris prosesinin keyfiyyətinin artırılmasına töhfə verir.

Qeyd edək ki, Elm və Təhsil Nazirliyi ilə "Microsoft" arasında həyata keçirilən bu proqram ali təhsil sistemində rəqəmsal transformasiyanın sürətləndirilməsi, innovativ texnologiyaların tədris mühitinə inteqrasiyası və rəqəmsal bacarıqlara malik insan kapitalının inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

# "Qərbi Azərbaycana qayıdış: milli ideyanın yeni mərhələsi kimi"

## Aparat rəhbəri I Beynəlxalq elmi konfransda çıxış edib

**İyunun 3-də Bakı Dövlət Universiteti (BDU) və Qərbi Azərbaycan İcmasının (QAİ) birgə təşkilatçılığı ilə keçirilən "Qərbi Azərbaycana qayıdış: milli ideyanın yeni mərhələsi kimi" mövzusunda I Beynəlxalq elmi konfrans öz işinə başlayıb.**






Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Açılış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, Qərbi Azərbaycana qayıdış məsələsi yalnız milli gündəlik deyil, beynəlxalq humanitar hüquq, insan hüquqları, öz torpaqlarından didərgin düşmüş soydaşlarımızın geri dönüşü kontekstində araşdırılması vacib olan elmi istiqamətlərdəndir. Qayıdış ideyası revanşizm, münaqişənin davamı deyil, hüquqa söykənən tarixi ədalət çağırışı, uzunmüddətli sülh və etimad üçün yeni imkanların axtarışıdır.

Rektor vurğulayıb ki, bu məsələdə milli yaddaşın qoruyucuları olan ali təhsil müəssisələrinin üzərinə xüsusi missiya düşür. Tarixi sənədlərin toplanması, hüquqi bazanın gücləndirilməsi, beynəlxalq elmi əməkdaşlıq, arxiv materiallarının sistemləşdirilməsi, toponimika, etnoqrafiya, mədəni irs, insan hüquqları və beynəlxalq hüquq istiqamətlərində araşdırmaların genişləndirilməsi mühüm vəzifələr olaraq qalır. Elçin Babayev sözügedən konfransın yeni ideyaların yaranmasına, elmi əməkdaşlığın genişlənməsinə və Qərbi Azərbaycana qayıdış mövzusunun beynəlxalq elmi diskursda daha geniş yer almasına mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

QAİ-nin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli qeyd edib ki, elmi konfrans bu istiqamətdə gerçəkləşdirilən məqsədyönlü və konseptual fəaliyyətə ciddi dəstək kimi dəyərləndirilə bilər. Qərbi Azərbaycana Qayıdış Konsepsiyası beynəlxalq hüququn norma və prinsiplərinə, dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə, sülh, barışıq və birgəyaşayış dəyərlərinə əsaslanır. Qərbi Azərbaycana hüquqi və ləyaqətli qayıdış ideyası Cənubi Qafqazda etimad quruculuğunun yeni mərhələsi ola bilər. Çünki hüquqa əsaslanan qayıdış revanş yox, etimad, ədalət, sülh yaradır.

Türkiyə Böyük Millət Məclisinin üzvü, Azərbaycan-Türkiyə Parlamentlərarası Dostluq Qrupunun sədri Şamil Ayrım Qərbi Azərbaycana qayıdış tələbinin Cənubi Qafqazda uzunmüddətli sülhün təmin olunmasına xidmət edən mühüm amillərdən biri olduğunu deyib. Bildirib ki, Qərbi Azərbaycandan deportasiya olunmuş insanların taleyi yalnız Azərbaycanın deyil, bütövlükdə Türk dünyasının ortaq vicdan məsələsidir.

Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli çıxışında Qərbi Azərbaycanla bağlı milli fəaliyyətin elm və təhsilin üzərinə xüsusi vəzifələr qoyduğunu bildirib. Mətin Kərimli qeyd edib ki, tarixi faktların araşdırılması, sənədləşdirilməsi, elmi əsaslarla hazırlanması akademik ictimaiyyətin qarşısında duran mühüm vəzifələrdən biridir. Bu istiqamətdə universitetlər, elmi-tədqiqat institutları və bütün təhsil müəssisələri mühüm işlər həyata keçirirlər: "Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının icrası ali təhsil müəssisələrində Qərbi Azərbaycan tarixinin, həqiqətlərinin təbliği, bununla bağlı resursların artırılmasını tələb edir. Qərbi Azərbaycan məsələsi insan hüquqları, tarixi ədalət və beynəlxalq hüquq məsələsidir, missiyadır. Bu missiya ideyadan fəaliyyətə, sözdən əmələ keçib. Qərbi Azərbaycana qayıdış bizim davamlı sülh və dialoq gündəliyimizin bir hissəsidir. Bu, bizdən xatirələrlə yox, məhz planlarla yaşamağı tələb edir. Güclü dövlət kimi biz illəri yox, nəsilləri, əsrləri planlaşdırmağı öyrənməliyik və bunu da edirik".

Milli Məclis sədrinin müavini Musa Qasımlı Qərbi Azərbaycana qayıdış ideyasının tarixi həqiqətlərə əsaslandığını bildirib: "Hesab edirəm ki, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi Qərbi Azərbaycana qayıdış ideyası öz məqsədinə çatacaq. Bugünkü konfransda gənclərin, alimlərin və tədqiqatçıların məruzələrlə çıxış etməsi bu ideyanın elmi əsaslarının daha da möhkəmlənməsinə və təşviqinə əlavə töhfə verəcək".

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, Qərbi Azərbaycan məsələlərini tədqiq etmək üçün Akademiyanın müxtəlif strukturlarında Qərbi Azərbaycan tarixi, Qərbi Azərbaycan folkloru, Qərbi Azərbaycan toponimiyası və Qərbi Azərbaycanla bağlı əlyazmaların tədqiqi adlı şöbələr fəaliyyətə başlayıb. O, Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının ərazi iddiası olmayan bütövlük, barış konsepsiyası olduğunu vurğulayıb.

Digər çıxışlarda da Qərbi Azərbaycana qayıdış ideyasının tarixi ədalətin bərpası baxımından əhəmiyyəti vurğulanıb, soydaşlarımızın doğma yurdlarına təhlükəsiz və ləyaqətli qayıdışının təmin olunması istiqamətində aparılan fəaliyyətlərdən bəhs edilib.

Həmçinin deportasiya faktlarının beynəlxalq hüquq müstəvisində sənədləşdirilməsi, hüquqi qiymətləndirilməsi və qayıdış hüququnun müdafiəsi üçün beynəlxalq mexanizmlərdən səmərəli istifadənin vacibliyi qeyd olunub. Bununla yanaşı, Qərbi Azərbaycan irsinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması məqsədilə ali təhsil müəssisələrində tədris və elmi-tədqiqat fəaliyyətinin genişləndirilməsinin, ixtisaslaşmış araşdırma mərkəzlərinin yaradılmasının əhəmiyyəti vurğulanıb.

Açılış mərasimindən sonra konfrans öz işini panel sessiyaları ilə davam etdirib.



İki gün davam edən konfransda Qərbi Azərbaycana qayıdışın tarixi, hüquqi, siyasi, mədəni və sosio-fəlsəfi aspektləri, regional sülh və təhlükəsizlik baxımından əhəmiyyəti müzakirə olunub. Qərbi Azərbaycana qayıdış konsepsiyası milli ideyanın inkişaf mərhələsi kimi beynəlxalq hüquq normaları kontekstində qiymətləndirilib.

Konfransda həmçinin humanitar və mədəni irsin qorunması məsələləri, qayıdış ideyasının sülh və regional sabitliklə uzlaşan konseptual model kimi təqdim edilməsi, milli ideyanın müasir mərhələdə dövlətçilik, suverenlik və tarixi ədalət prinsipləri əsasında yenidən şərh olunması istiqamətində əldə edilmiş elmi nəticələr beynəlxalq müstəvidə müzakirə olunub, habelə Qərbi Azərbaycandan deportasiya olunmuş azərbaycanlıların qayıdış hüququnun normativ əsasları elmi baxımdan təhlil edilib.

# Elmdə islahatlar

# Kimya İnstitutunda aparılan islahatlar ciddi nəticələr verir

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki elmi müəssisələrində aparılan hərtərəfli islahatlar yeni mərhələdə daha inamla davam etdirilir. Ciddi struktur və institutsional islahatlara başlanmasından qısa vaxt keçsə də, artıq öz məntiqi nəticələrini verməkdədir. Məlumat üçün qeyd edək ki, optimallaşma tədbirləri ilə əlaqədar yaradılan yeni institutlardan biri “Kimya İnstitutu” Publik Hüquqi Şəxsdir. Bu elmi müəssisə akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu və akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutu əsasında formalaşdırılıb.**



### Kəmiyyətdən keyfiyyətə

Digər elmi müəssisələrdə olduğu kimi, Kimya İnstitutunda da aparılan islahatların ardıcıl xarakter daşıyaraq, ilk növbədə, elmi fəaliyyətin kəmiyyətdən çox keyfiyyət göstəricilərinin yüksəldilməsi və nəticəyönümlü idarəetmə mexanizmlərinin tətbiqi əsas məqsəd hesab edilir. İslahatların ən mühüm tərkib hissəsi kimi Əmək Məcəlləsinin mövcud tələblərinə uyğun olaraq işçilərin sayı azaldılarkən və ya ştatların ixtisarı həyata keçirilərkən ixtisasın və peşəkarlıq səviyyəsinin daha yüksəyinə malik olan işçilərin işdə saxlanılmasına üstünlük verilib.

Təbii ki, mərkəzi icra hakimiyyəti orqanı kimi Elm və Təhsil Nazirliyi optimallaşma tədbirlərinə ilk olaraq akademik sistemdən fərqli olaraq yeni formalaşan institut rəhbərliyinə elmi işçilərin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi zamanı bütün dünyada olduğu kimi onun elmi fəaliyyətinin elmmetrik göstəricilərin əsas götürülməsini tövsiyə etmişdir. Bu zaman son 5-10 ildə əsasən “Web of Science” və “Scopus” kimi beynəlxalq elmi bazalarda arxivləşən, impakt faktorlu, nüfuzlu xarici jurnallarda çap olunması nəzərə alınmışdır. İxtisara düşən elmi işçilərin böyük əksəriyyətinin bu qlobal elmi bazarlarda arxivləşən bir məqaləsi belə olmamışdır.

Yeni institutlarda aparılan ən mühüm struktur islahatlar laboratoriya, əsas və yardımçı şöbələrlə bağlı olmuşdur. Məsələn, birləşənə qədər akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri üzvi Kimya İnstitutunda 7 elmi şöbə, 30 laboratoriya, akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunda isə 14 laboratoriya və hər ikisində bir o qədər gərəksiz yardımçı şöbə və sektorlar mövcud olub. Onların son illərdəki fəaliyyətini təhlil edəndə məlum olur ki, bir-birini təkrarlayan laboratoriyaların böyük əksəriyyətinin elmi məhsuldarlığı çox aşağı olmuşdur. Baxmayaraq ki, sovet dövründə o laboratoriyalar nəticəyönümlü fəaliyyət göstərmişlər. Ancaq indi müasir dövrün tələbləri ilə ayaqlaşa bilmirdi. Təsəvvür edin, kollektivi cəmi 3 nəfərdən ibarət və ya vaxtı ilə tanınmış, görkəmli alimlərin adlarına şöbə və ya laboratoriyalar yaradılmış, onlara qarşı heç bir tələbkarlıq olmamışdır.

Aparılan struktur islahatlar nəticəsində oxşar, məhsuldar olmayan, perspektivsiz laboratoriyalar birləşdirilərək, yerlərində dünya elminin müasir prioritetlərinə və Azərbaycan reallıqlarına uyğun yenilənmiş və yaxud təkmilləşdirilmiş adlarda 15 laboratoriya (məsələn, “Nanoelektrokataliz və hidrogen enerjisi” və ya “Bioüzvi kimya” laboratoriyaları və s.), 2 analitik mərkəz və 1 təcrübi-sınaq stansiyası formalaşdırılmışdı. Hər şeydən öncə laboratoriyalar fundamental elmi və innovativ olaraq təsnifləşdirilərək, onların aydın yaxın və uzaq hədəfləri müəyyənləşdirilmişdi.

Empirik və təcrübi müşahidələrə əsaslanan fundamental elmi laboratoriyalar qarşısında müştərək beynəlxalq tədqiqatlara qoşulmaq, dünyanın aparıcı elmi mərkəzlərinə inteqrasiya olunmaq başlıca vəzifə kimi qoyulmuşdur. Həmin laboratoriyalarda aparılacaq beynəlxalq səviyyəli tədqiqatların nəticələrinin yüksək resenziyalı xarici jurnallarda dərc olunması sonrakı fəaliyyətlərinin qiymətləndirilməsi zamanı əsas göstərici kimi götürüləcək. Əksinə, inovativ laboratoriyaların fəaliyyətləri birbaşa sənaye sahələri ilə əlaqələndiriləcək, onlar üçün əldə edəcəkləri elmi-texniki yeniliklərin patentləşdirilməsi və tətbiqi işləmələrin hazırlanmasına üstünlük veriləcək.

Ümumiyyətlə, əvvəllər mövcud olmuş əsas elmi şöbələr tamamilə ləğv edilmiş və laboratoriyaların tabeliliyi minimuma endirildi.



Bu məsələdə elm və təhsil naziri Emin Əmrullayevin tövsiyəsi ondan ibarətdir ki, dünyanın aparıcı elm mərkəzlərində olduğu kimi laboratoriyalara maksimum sərbəstlik və yaradıcılıq imkanları vermək lazımdır ki, onlar konkret elmi tədqiqatlar aparıb, daha çox elmi məhsul yarada bilsinlər.

### Alimlərin fəaliyyətini monitorinq və qiymətləndirilməsi

Yeni institutlarda yardımçı şöbə və sektorların yaradılmasına tam fərqli yanaşma ortaya qoyulmuşdu. Belə ki, elmi tədqiqat institutlarına lazım olmayan köməkçi şöbələrə ehtiyac qalmamış, onların əvəzində “Elmi tədqiqatlara dəstək” şöbəsinin struktur vahidləri olaraq “İnnovasiya və texnoloji tranfer” və ya “Data Analitika” ofisləri, yaradılmışdır. Dünyanın müasir çağrışları ilə səsləşən bu strukturlar alimlərin əldə etdiyi fundanmental və inovativ elmi nəticələrin rəqəmsal texnologiyanın imkanları və texnologiyaların transferi xəttilə əsas ünvanlara çatdırılmasını təmin edəcək. Bu nəticələrin tətbiq olunması artıq alim əməyinin məntiqi nəticəsi olaraq meydana çıxacaq, onları daha yeni-yeni nailiyyətlərə sövq edəcək. Eləcə də daha bir yeni struktur vahid kimi formalaşdırılan “Strateji inkişaf, monitorinq və qiymətləndirmə” sektoru həm laboratoriya, şöbə və sektorların, həm də alimlərimizin fəaliyyətinin mütəmadi olaraq, monitorinq və qiymətləndirməsini aparacaq, reytinq siyahı tərtib edəcək və bütövlükdə müəssisənin yaxın və uzaq dövr üçün strateji inkişafı ilə bağlı yol xəritəsini hazırlayacaq.

### Gənc kadrlar idarəetmədə

Elmi-tədqiqat müəssisələrində diqqət cəlb edən məqamlardan biri odur ki, struktur islahatları ilə paralel olaraq, kadr islahatları da gedir, daha müasir, böyük potensiala malik olan perspektiv gənc kadrlar önə çəkilir. Bu prosesin yaxın iştirakçısı kimi qeyd edə bilərəm ki, Elm və Təhsil Nazirliyi yeni institutlara rəhbərlikdə müasir və innovativ düşüncəli gənc kadrlara ehtimad göstərir. Dünyanın aparıcı elmi mərkəzlərinin nümunəsində yenidən strukturlaşan elmi müəssisələrdə laboratoriya, əsas və yardımçı şöbələrdə müxtəlif vəzifələrə də yenə gənc mütəxəssislərin təyinatı tövsiyə olunur. Bu, görkəmli qocaman alimlərimizdən tamamilə imtina anlamı demək deyildir. Dəyərli alimlərimizin müvafiq struktur vahidlərdə elmi məsləhətçi funksiyasını yerinə yetirən baş elmi işçi kimi saxlanılması və onların böyük, qabaqcıl təcrübəsindən gənclərin faydalanmasının təşviq edilməsi doğurdan da həlledici amil hesab olunur.

Akademik institutlarda ciddi problemlərdən biri tədqiqat mühütünün yetərsizliyi, maddi-texniki bazanın mövcud potensialından səmərəli istifadə olunmaması, ən əsası bu imkanların bütün tədqiqatçılar üçün, xüsusən gənc alimlərdən ötrü əlçatan olmaması ilə bağlı idi.

Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi tərəfindən bu günlərdə “Rəqəmsal Repozitariyaların İnkişafına Dəstək” layihəsi çərçivəsində laboratoriya avadanlıqları üzrə mərkəzi rəqəmsal repozitariya istifadəyə verilməsi, məhz bu istiqamətdə aparılan islahatların ən mühüm nəticəsidir. Azərbaycanda ilk dəfə yaradılan platformanın əsas məqsədi ölkənin elmi və ali təhsil müəssisələrində mövcud olan laboratoriya avadanlıqları haqqında məlumatları vahid rəqəmsal bazada toplamaq və tədqiqatçılar üçün bu avadanlıqlara çıxışı asanlaşdırmaqdır. Bu platforma ölkənin elmi və ali təhsil müəssisələrində mövcud olan laboratoriya avadanlıqlarını vahid bazada birləşdirən, sözün əsl mənasında, ilk açıq çıxışlı rəqəmsal repozitariyadır.

Hazırda repozitariyada 29 müəssisəyə aid 2000-ə yaxın laboratoriya avadanlığı haqqında məlumat yerləşdirilib. Bazada avadanlığın adı, istehsalçı şirkəti və ölkəsi, istehsal ili, yerləşdiyi laboratoriya, şəkli, eləcə də avadanlığa məsul şəxs barədə məlumatlar təqdim olunur.

Layihə laboratoriya avadanlıqlarından daha səmərəli istifadə olunmasına, eyni avadanlığın müxtəlif qurumlar tərəfindən təkrar alınmasının qarşısının alınmasına və büdcə vəsaitlərinə qənaət edilməsinə töhfə verəcək. Eyni zamanda, platforma alim və tədqiqatçıların elmi fəaliyyətini dəstəkləməklə yanaşı, elmi, sənaye və korporativ müəssisələr arasında əməkdaşlıq imkanlarını genişləndirəcək.

Elmi-tədqiqat institutlarında aparılan islahatların özəlliyi həm də onunla izah olunur ki, tədqiqat mühütünün yaxşılaşdırılması ilə paralel şəkildə alimlərimizin maddi imkanlarının yüksəldilməsi tədbirləri yerinə yetirilir.

Akademik sistemin bəlkə də ən böyük çatışmazlığı institutda çalışan elmi işçilərin fəaliyyətinin elmmetrik meyarlar əsasında qiymətləndirilməməsi idi.

Bir daha xatırlatmaqda fayda görürəm ki, bütün dünyada alimin elmi fəaliyyəti elmmetrik meyarlar əsasında qiymətləndirilir. Alimin nə vaxtsa əldə etdiyi elmi dərəcəsi və ya elmi adı ola bilər. Amma söhbət müasir dövrdə, indiki zamanda onun çalışdığı müəssisiyə verdiyi töhfədən gedir. Əgər son 5-10 ildə elmmetrik meyarlarla qiymətləndirmə zamanı alimin fəaliyyəti sıfıra bərabərdirsə, onun institutda heç bir işi ola bilməz. Necə ki, elmi müəssisələrdə aparılan optimallaşma, səmərəliləşdirmə tədbirləri zamanı bu addımlar atılır.

Elmmetrik qiymətləndirməni tənqid edənlər isə bir şeyi başa düşmək istəmirlər ki, fundamental elmlə məşğul olan alim apardığı tədqiqatın nəticələrini elə bir nüfuzlu xarici jurnalda çap etdirməlidir ki, dar çərçivədə özünə, çalışdığı universitet və ya instituta, geniş anlamda ölkəsinə nüfuz gətirə bilsin. Burada keyfiyyət əmsalını da tapmaq o qədər də çətin deyil. Bu, dünya təcrübəsində var. Elmi əsərlərin hansı elmi jurnallarda, hansı dərgilərdə nə qədər çap olunub və elmi potensialın bugünkü reallıqlara nə dərəcədə uyğundur.

Bu nəzər-nöqtəsindən Elm və Təhsil Nazirliyinin tabeliyində olan elmi tədqiqat institutlarında çalışan tədqiqatçıların əməyinin stimullaşdırılması məqsədilə maddi mükafatların verilməsi ciddi elmlə məşğul olan alimlərimizin əməyinə verilən ən düzgün qiymət və onlar arasında sağlam rəqabəti təşviq edən gözəl vasitədir. Bu ildən etibarən həyata keçirilən proqram çərçivəsində “Elmi iş müəlliflərinin müəllif balının hesablanması Qaydası”na dəyişikliklər də edildi. Yeni qərara əsasən, tədqiqatçıların son 6 il ərzində Q3 və Q4 kvartilli jurnallarda dərc olunmuş məqalələri, eləcə də patentləşdirilmiş ixtira və faydalı modelləri qiymətləndirmə meyarlarına daxil olundu.

### Mükafat alanların sayında artım

Yeri gəlmişkən, qeyd etmək istəyirəm ki, “Kimya İnstitutu” Publik Hüquqi Şəxsin 2026-cı ilin mart-aprel ayları üzrə (patentləşdirilmə meyarları nəzərə alınmadan) ümumilikdə 75 əməkdaşı maddi mükafat alanların siyahısına daxil olub. Onlardan 9 nəfər A kateqoriyası, 12 nəfər B kateqoriyası, qalanları isə C kateqoriyası üzrə yer tutmuşdur.

Nəzərə alsaq ki, hər il ölkə üzrə elmi tədqiqat institutları arasında ən çox patent alan təşkilat Kimya İnstitutudur, onda növbəti aylarda bu elmi müəssisə üzrə maddi mükafat alanların sayında kəskin artan dinamika müşahidə olunacaq.

Əsas olan odur ki, bu yeni maliyyələşmə mexanizmilə əməyi maddi mükafatlandırılanların sayının 25-dən 75-ə çatdırılması bu cür yanaşmanın özünü tam doğrultduğunu deməyə əsas verir.

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin bilavasitə təklifi və təşkilatçılığı ilə gerçəkləşən bu tədbirlər bir tərəfdən alimin əməyinə qiymət verməklə, onlar arasında sağlam rəqabət mühütünün yaradılması, digər tərəfdən ölkəmizin elminin dünya elminə inteqrasiyası üçün institutlarda aparılan elmi tədqiqatların keyfiyyət göstəricilərinin artırılmasına xidmət edəcəkdir.



Artıq deyə bilərik ki, bu tədbirlər öz məntiqi nəticəsini verməkdədir. Belə ki, bu ilin 6 ayı ərzində Kimya İnstitutunun alimlərinin 167 məqaləsi dərc olunmuşdur ki, onun 104-ü xarici, qalanları yerli resenziyalı jurnallardadır. Dərc olunan məqalələrdən 149-u Web of Science bazasına daxil olub. Halbuki ötən ilin müqayisə olunan dövründə Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun alimlərinin 69 məqaləsi (onlardan cəmi 48-i xaricdə) çap olunmuşdur ki, onlardan da yalnız 12-i Web of Science bazası üzrədir. Aşqarlar Kimyası İnstitutunun alimlərinin 2025-ci ilin 6 ayında xarici jurnallarda 10 olmaqla, 16 məqalə çap olunmudur ki, onun 8-i Web of Science bazasına daxil olmuşdur. Beləliklə, hər iki institut alimlərinin ötən ilin yarım ilində birlikdə çap etdiridiyi məqalələrin kəmiyyət və keyfiyyət göstəriciləri bu ilin 6 ayında qeydə alınan müvafiq göstəricilərdən iki dəfə çoxdur.

Nəzərə alsaq ki, İnstitutun aparıcı alimləri hazırda alüminium və nadir elementlərin istehsal bazasını artıran innovativ “Alunit şlamı - kaolinit texnologiyası”nın işlənib hazırlanması; Alternativ enerji tətbiqləri üçün yeni tənzimlənən tərkibli funksional materialların alınması və tədqiqi; Neft kəmərlərində və quyularında çökmənin riyazi modellərlə proqnozlaşdırılması və tətbiqi; Neft kəmərlərində və quyularında çökmənin riyazi modellərlə proqnozlaşdırılması və tətbiqi; Günəş enerjisindən istifadə etməklə “Yaşıl” hidrogenin alınma texnologiyasının işlənib hazırlanması; Nanokompozit texnologiyalar əsasında neft quyularının çıxımının artırılması; Qarabağ və Şərqi Zəngəzurun dərman bitki ekstraktlarından təbii və zərif sintez üsulu ilə yeni nəsil sintetik enzim-izoenzim inhibitorların yaradılması və canlılarda patoloji proseslərə qarşı eksperimental modellərdə effektivliyinin tədqiqi; “Yaşıl korroziya inhibitorları” nın alınması və tətbiqi sahələrinin müəyyənləşdirilməsi və Çox funksiyalı eko-sürtkülərin hazırlanması istiqamətində proqram əsaslı yeni maliyyələşmə mexanizmləri əsasında fundamental və tətbiqyönlü tədqiqatlar aparırlar, nəticədə bu ilin sonuna əldə olunan mühüm elmi nəticələrin dərc olunduğu məqalələrin sayı həndəsi silsilə ilə artmış olacaq.

### Beynəlxalq və yerli əməkbaşlıq

Kimya İnstitutu beynəlxalq və yerli elmi əməkdaşlığa fərqli yanaşmalar gətirmək istəyir. Bu yaxınlarda Fizika İnstitutu ilə multidissiplinar əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan qarşılıqlı anlaşma memorandumun imzalanması çox şeydən xəbər verir.

Memorandum elmi müəssisələrin optimallaşdırılması və tədqiqat potensialından daha səmərəli istifadə edilməsi istiqamətində qəbul edilmiş müvafiq sərəncam və qərarların praktik davamı olaraq, fizika və kimya sahələri arasında daha çevik, açıq və nəticəyönümlü əməkdaşlıq mexanizminin formalaşdırılmasını nəzərdə tutur.

Bu anlaşma fizika və kimya sahələrində dar ixtisaslaşmış yanaşmadan daha inteqrativ və multidissiplinar əməkdaşlıq modelinə keçidi təşviq edir. Əməkdaşlıq çərçivəsində institutların tədqiqat laboratoriyaları və analitik mərkəzlərinin imkanları alimlər, doktorantlar və gənc tədqiqatçılar üçün qarşılıqlı əsasda əlçatan olacaq.

Tərəflər fundamental və innovativ tədqiqatların birgə aparılması, ortaq elmi layihələrin hazırlanması, beynəlxalq proqramlarda iştirak, seminar və konfransların təşkili, habelə yüksəkixtisaslı kadr hazırlığında birgə elmi dəstəyin göstərilməsi istiqamətlərində əməkdaşlıq edəcəklər.

Qarşılıqlı anlaşma ənənəvi fizika və kimya elmi məktəblərinin potensialını bir araya gətirməklə müasir elmi çağırışlara uyğun yeni tədqiqat imkanlarının formalaşmasına töhfə verəcək.

Kimya İnstitutu elmi müəssisələr kimi universitetlərlə də real əməkdaşlığın və bu yolla elmlə təhsilin inteqrasiyasına nail olmaq istəyir. Növbəti mərhələdə universitetlərlə imzalanacaq rəsmi sənədlər Kimya İnstitutunun laboratoriyalarının magistrant və bakalavr tələbələri üçün təcrübə mərkəzinə çevrilməsini hədəfləyir.

Sevindirici hal ondan ibarətdir ki, elmi tədqiqat müəssisələrində təhsil almaq, gələcəyin alimləri kimi formalaşmaq istəyən gənclərin sayında artım dinamika nümayiş olunur. Bu il Kimya İnstitutunun fəlsəfə doktoru hazırlığı üzrə 7 ixtisas üzrə 21 yer ayrılıb. Sənəd qəbulu elanından ötən 14-15 gün müddətində artıq 30-a yaxın namizəd sənədlərini uyğun ixtisaslar üzrə təqdim edib. Əvvəlki illərdə bir ixtisasa çətinliklə bir iddiaçı sənəd verirdisə, indi elə ixtisaslar var ki, ayrılan yerlərin sayından 2 dəfə çox sənəd təqdim edənlər var. Bu o deməkdir ki, bu il seçim zamanı güclü rəqabət yaranacaq.

Sonda onu qeyd etmək olar ki, akademik institutlarda aparılan islahatlardan məmnun qalan və onu alqışlayan elm adamlarımız çoxluq təşkil edir. Əgər biz doğrudan da elmi inkişaf etdirmək istəyiriksə, sadəcə, elmi işçiləri işlə təmin etmək yox, elmi inkişaf etdirmək istəyiriksə, bu islahatlara getməliydik və nəhayyət, getdik. Əks halda, elmi inkişafdan ancaq sözdə danışacaqdıq. Bir halda inkişaf etmiş ölkələrin inkişafı yerlatı sərvətlərlə deyil, ancaq zəka, ağıl, təhsil, elmlə bağlıdır, niyə də bunun inkişafında qalib ölkənin elm adamı kimi maraqlı olmayaq.

**Əfsun SUCAYEV,**
**Elm və Təhsil Nazirliyinin “Kimya İnstitutu” PHŞ-nın direktoru vəzifəsini icra edən, professor**

# "Təhsil innovasiyaları müstəvisində"



**İyunun 4-də Bakı Slavyan Universitetində (BSU) pedaqogika üzrə fəlsəfə doktoru, Əməkdar müəllim, dosent Ənvər Abbasovun 75 illik yubileyinə həsr olunan "Təhsil innovasiyaları müstəvisində" mövzusunda konfrans keçirilib. Konfransda çıxış edən BSU-nun rektoru Anar Nağıyev tədbirin müasir təhsil və ali təhsilin qarşısında duran aktual çağırışların müzakirəsi üçün mühüm platforma olduğunu vurğulayıb. Rektor qeyd edib ki, bu gün ali təhsil müəssisələrinin əsas vəzifələrindən biri əmək bazarının tələblərinə uyğun, innovativ düşüncəyə malik mütəxəssislərin hazırlanmasıdır. O, xüsusilə pedaqoji kadr hazırlığı, təhsil məzmununun yenilənməsi, ömürboyu təhsil, inklüzivlik və süni intellektin tədris prosesinə inteqrasiyası kimi məsələlərin aktuallığını diqqətə çatdırıb.**



## BSU-da Ənvər Abbasovun 75 illiyinə həsr olunan konfrans keçirilib

Anar Nağıyev bildirib ki, BSU təhsil ictimaiyyəti ilə əməkdaşlığı genişləndirərək regionlarda müəllimlərlə görüşlər, forumlar və müxtəlif layihələr həyata keçirir, bu proseslər ali təhsillə əmək bazarı arasında əlaqələrin daha da gücləndirilməsinə xidmət edir. Rektor vurğulayıb ki, təhsil sahəsində aparılan müzakirələr universitetlərin gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində mühüm rol oynayır.

Çıxışında Ənvər Abbasovun Azərbaycan təhsilinin inkişafı, kurikulum islahatları və pedaqoji fikrin formalaşması sahəsindəki müstəsna xidmətlərini xüsusi qeyd edən rektor onun BSU-da elmi-pedaqoji fəaliyyətinin universitet üçün böyük dəyər daşıdığını bildirib. Anar Nağıyev Ənvər Abbasovun zəngin təcrübəsinin gənc mütəxəssislərin və tədqiqatçıların yetişməsinə mühüm töhfə verdiyini vurğulayaraq, yubilyarın dövlət tərəfindən yüksək mükafatlarla təltif edilməsinin onun çoxillik fəaliyyətinə verilən layiqli qiymət olduğunu qeyd edib.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov çıxışında Ənvər Abbasovun Azərbaycan təhsil sisteminin inkişafına verdiyi töhfələrdən danışıb, onun elmi-pedaqoji fəaliyyətini və kurikulum quruculuğu sahəsindəki xidmətlərini diqqətə çatdırıb.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Rüfət Əzizov isə çıxışında Ənvər Abbasovun təhsil sahəsindəki çoxillik fəaliyyətini vurğulayaraq onun formalaşdırdığı elmi-pedaqoji irsin bu gün də aktuallığını qoruduğunu qeyd edib.

Çıxış edən BSU-nun Jurnalistika kafedrasının müdiri, millət vəkili Vüqar Rəhimzadə Ənvər Abbasovun Azərbaycan təhsilinin inkişafındakı xidmətlərindən bəhs edib, onun fəaliyyətinin gələcək nəsillər üçün örnək olduğunu vurğulayıb.

Konfrans çərçivəsində əməkdar müəllim Asif Cahangirov "Müasir kurikulumların inkişaf tendensiyaları", "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının rəhbəri Cəfər Mənsimi "Təhsil sistemində innovativ yanaşmalar", pedaqoji elmlər doktoru, professor Hikmət Əlizadə "Ənvər Abbasovun elmi-pedaqoji əsərlərinin məzmunu", pedaqoji elmlər doktoru, professor, əməkdar elm xadimi Fərrux Rüstəmov "Səriştəəsaslı təhsil", Təhsil İnstitutunun direktor müavini, dosent Faiq Şahbazlı "Yeni nəsil dərsliklərin yaradılması", Təhsil İnstitutunun direktor müavini İlham Cavadov "Təhsil islahatlarının inkişaf mərhələləri və müasir çağırışlar", BSU-nun Tədris Departamentinin direktoru Zümrüd Yolçuyeva "Ənvər Abbasov və Bakı Slavyan Universiteti: elmi-pedaqoji əməkdaşlığın inkişaf istiqamətləri" mövzularında çıxış ediblər.

Çıxış edən Ənvər Abbasov yubiley tədbirinin yüksək səviyyədə təşkilinə görə universitet rəhbərliyinə təşəkkürünü bildirib, göstərilən diqqət və ehtiramı xüsusi dəyərləndirdiyini qeyd edib.

---

**Ölkəmizdə insan kapitalının inkişaf etdirilməsi ali təhsil sistemi qarşısında mühüm vəzifələr qoyur. Ölkə iqtisadiyyatının hərtərəfli inkişafı, yüksəkixtisaslı kadr potensialının formalaşdırılması baxımından Azərbaycan və bir sıra xarici ölkələr arasında bağlanmış müqavilələr əsasında həyata keçirilən Hökumətlərarası Təqaüd Proqramları (HTP) mühüm əhəmiyyət kəsb edir. Proqram gənclərimizin dünyanın nüfuzlu ali təhsil müəssisələrində yüksəksəviyyəli mütəxəssislər kimi formalaşmasına öz töhfələrini verir. Belə gənclərdən biri də Rumıniyanın Sibiu şəhərində yerləşən "Lucian Blaga University of Sibiu"nun (ULBS) tələbəsi Əsma Mənsurzadədir.**

### Uğur hekayəsi

# "Xaricdə təhsil almaq həm maraqlı, həm də çətin yoldur"



HTP tələbəsi

"Azərbaycan müəllimi"nə müsahibəsində Əsma Mənsurzadə proqramın əhəmiyyəti, Rumıniyadakı təhsil həyatı, uğurları barədə danışır. Əvvəlcə müsahibimizi oxuculara təqdim edirik.

— Mən Əsma Mənsurzadə, Bakı şəhərində doğulmuşam. Geniş maraq dairəsinə malik, daim özünü inkişaf etdirməyə çalışan biriyəm. Musiqi, müxtəlif idman növləri və fərqli mədəniyyətlərlə maraqlanıram. Məktəb illərindən etibarən müxtəlif yerli və beynəlxalq layihələrdə iştirak etmişəm. Könüllü kimi fəaliyyət göstərmişəm. COP29 çərçivəsində Gənc İqlim Elçisi kimi ölkəmizi təmsil etmişəm.

*— Rumıniyada ali təhsil həyatınız necə başladı? Bu yolda Hökumətlərarası Təhsil Proqramının rolu və əhəmiyyəti barədə nə deyərdiniz?*

— Uşaqlıqdan xaricdə təhsil almaq arzum olub. Buna görə Dövlət İmtahan Mərkəzinin (DİM) imtahanları ilə yanaşı beynəlxalq imtahanlara da hazırlaşırdım. Bu hazırlığın nəticəsi olaraq DİM imtahanlarında yüksək nəticə göstərərək Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə ödənişsiz əsaslarla qəbul oldum. Ancaq məqsədim yalnız ali təhsil almaq deyil, həm də özümü beynəlxalq akademik mühitdə sınamaq idi. Bu məqsədlə xaricdə təhsil imkanlarını araşdırmağa davam etdim.

Bu yolda Hökumətlərarası Təhsil Proqramının rolu böyük oldu. Dövlətimizin gənclərin xaricdə təhsil alması üçün yaratdığı imkanlar mənə də arzumun gerçəkləşməsi məqsədilə fürsət yaratdı. Müraciət etməyə və özümü sınamağa qərar verdim.

Hazırda təhsilimin ilk ilindəyəm və rumın dili hazırlıq proqramında təhsil alıram. Bu mərhələ mənim üçün həm yeni bir dil öyrənmək, həm də yeni təhsil mühitinə uyğunlaşmaq baxımından dəyərli təcrübədir. Qarşıda isə məni dörd illik bakalavr təhsili gözləyir.

*— Rumıniyanın ali təhsil sistemi, eləcə də təhsil aldığınız universitet barədə nə deyərdiniz? Bu ölkədə təhsil həyatınız sizi qane etdimi?*

— "Lucian Blaga University of Sibiu" Rumıniyanın dövlət universitetidir. 1990-cı ildə yenidən qurulmuş və ölkənin ən tanınmış universitetlərindən biridir. Universitet beynəlxalq tələbələr üçün də açıq akademik mühitə malikdir. Hazırda təhsilimin ilk mərhələsində olduğum üçün hər şeyi tam şəkildə dəyərləndirmək bir qədər tez olsa da, indiyədək əldə etdiyim təəssüratlar müsbətdir.

*— Universitetin təhsil, tədqiqat mühiti barədə nə deyərdiniz? Universitetdə əcnəbi tələbələrə münasibət necədir?*

— Hazırda hazırlıq proqramında təhsil aldığım üçün universitetin təhsil və tədqiqat mühiti ilə bağlı tam fikir formalaşdırdığımı deyə bilmərəm. Ancaq burada olduğum müddət ərzində müsbət təəssüratlar əldə etmişəm. Universitet tələbələrə özlərini inkişaf etdirmələri üçün müxtəlif imkanlar yaradır və müəllimlər də tələbələrə dəstək olmağa çalışırlar.

Əcnəbi tələbələrə münasibət də kifayət qədər müsbətdir. İlk günlər yeni ölkəyə və yeni mühitə uyğunlaşmaq müəyyən qədər çətin olsa da, həm universitet əməkdaşları, həm də müəllimlərimiz bu prosesi asanlaşdırmağa kömək edirlər.

*— Hansı ixtisas üzrə təhsil alırsınız və bu ixtisas sizin üçün nə dərəcədə maraqlı və cəlbedicidir?*

— Kompüter elmləri və informasiya texnologiyaları ixtisası üzrə qəbul olmuşam. Bu sahə mənim üçün həm maraqlı, həm də perspektivli bir sahədir. Hazırda texnologiya sürətlə inkişaf edir və həyatın demək olar ki, bütün sahələrində böyük rol oynayır. Məni bu sahəyə cəlb edən əsas məqam problemləri məntiq və yaradıcı düşüncə ilə həll etmək imkanıdır. Xüsusilə proqramlaşdırma, süni intellekt texnologiyasının necə işlədiyini öyrənmək mənə maraqlıdır.

Düşünürəm ki, gələcəkdə bu sahə daha da inkişaf edəcək və mən də bu inkişafın bir hissəsi olmaq, yeni şeylər yaratmaq və real problemlərin həllində texnologiyadan istifadə etmək istəyirəm. Ən çox xoşuma gələn tərəfi isə odur ki, burada daim öyrənmək və özünü inkişaf etdirmək lazımdır. Bu da mənə motivasiya verir.



*— Universitetdə Azərbaycan barədə həqiqətlərin tanıdılması, milli-mədəni keçmişimizin, tariximizin, mədəniyyətimizin təbliği sahəsində nə kimi tədbirləriniz olub?*

— Təhsil aldığım universitetdə hər il "Beynəlxalq həftə" ("International Week") adlı tədbir keçirilir. Bu il 11—15 may 2026-cı il tarixlərində təşkil olunan 12-ci "Beynəlxalq həftə" çərçivəsində dünyanın müxtəlif ölkələrindən müəllimlər, tədqiqatçılar və tələbələr bir araya gəldi.

Mən də bu tədbirdə ölkəmizi tanıtmaq imkanı əldə etdim və bunu böyük həvəslə etdim. Düşünürəm ki, xaricdə təhsil alan hər bir tələbə öz ölkəsini tanıtmaq üçün bir körpü rolunu oynayır və bu, eyni zamanda bizim mənəvi borcumuzdur. Bu məsuliyyəti ürəkdən hiss edərək bacardığım qədər layiqincə yerinə yetirməyə çalışdım. Tədbir zamanı Azərbaycanın tarixi, mədəniyyəti, milli dəyərləri və müasir inkişafı haqqında təqdimat etdim, həmçinin qonaqları ölkəmizin milli şirniyyatlarına qonaq etdim.

Bundan əvvəl isə universitetin kitabxanasında "Discover Azerbaijan — The Pearl of the Caucasus" adlı təqdimatla Azərbaycanın zəngin mədəni irsi, milli rəqsləri, geyimləri, tarixi abidələri, görməli yerləri və incəsənəti barədə məlumat vermişdim. Tədbir universitetin kitabxana rəhbərliyi və beynəlxalq tələbələr bölməsi tərəfindən maraqla qarşılanmışdı.

Ümumiyyətlə, Hökumətlərarası Təhsil Proqramının əsas məqsədi gənclərin beynəlxalq təcrübə qazanmasına və ölkələrarası mədəni əlaqələrin inkişafına töhfə verməkdir. Mən də bu proqram vasitəsilə bu imkandan yararlanaraq həm ölkəmi təmsil etməyə, həm də özümü inkişaf etdirməyə çalışıram.

*— Digər ölkələrdən olan tələbələrlə bir mühitdə təhsil almaq, xüsusən də türkdilli ölkələrdən olan gənclərin bir arada olması və əlaqələri barədə nə deyərdiniz?*

— Beynəlxalq mühitdə təhsil almaq mənim üçün çox dəyərli bir təcrübədir. Burada Çin, Hindistan, Türkiyə, Özbəkistan, Türkmənistan, Ukrayna, Mərakeş və digər ölkələrdən tələbələr təhsil alır. Artıq bir çoxu ilə dostluq münasibətləri qurmuşuq. Bəzən dərsdən sonra birlikdə vaxt keçirmək, fərqli ölkələrin yeməklərini, adət-ənənələrini müzakirə etmək çox maraqlı olur. Dostlarımdan bəziləri Azərbaycana gəlmək istədiklərini bildirirlər. Onlar ölkəmiz haqqında daha çox öyrənmək və görmək istəyirlər. Mən də onları sevə-sevə dəvət edirəm.

Burada türkdilli ölkələrdən olan tələbələr də çoxdur. Onlarla münasibət daha səmimi və rahat olur. Ortaq dil və mədəni yaxınlığımız ünsiyyətimizi daha da asanlaşdırır və aramızda təbii bir bağ yaradır. Bəzən eyni sözləri fərqli vurğu ilə desək də, bir-birimizi çox rahat anlayırıq və bu, ünsiyyətimizə maraq qatır. Düşünürəm ki, bu gün formalaşan bu dostluqlar gələcəkdə əməkdaşlıqlar üçün güclü bir zəmin olacaq.

*— HTP çərçivəsində xaricdə təhsil almaq istəyən gənc yaşıdlarınıza nə kimi tövsiyələriniz olardı?*

— Gənclərə ilk olaraq onu deyərdim ki, bu yol həm maraqlı, həm də müəyyən qədər çətin yoldur. Ona görə də əvvəlcədən yaxşı hazırlaşmaq çox vacibdir. Xarici dil biliklərini inkişaf etdirmək və akademik göstəricilərə ciddi yanaşmaq önəmlidir. Çünki bu, həm qəbul prosesində, həm də sonrakı təhsil həyatında böyük rol oynayır.

Amma məncə, bununla yanaşı insan mənəvi olaraq da hazır olmalıdır. Yeni mühitə açıq olmaq və dəyişikliklərdən çəkinməmək də vacibdir. Çünki ailədən, dostlardan uzaq olmaq, bəzən onlar üçün darıxmaq və hər şeyi təkbaşına həll etməyə çalışmaq bu təcrübənin bir hissəsidir.

Hər kəsə bu yola çıxmazdan əvvəl həm akademik, həm də mənəvi olaraq hazır olmağı tövsiyə edərdim.

*— Gələcək planlarınız barədə nə deyərdiniz?*

— Gələcək planlarım əsasən təhsil aldığım sahə-kompüter elmləri və informasiya texnologiyaları ilə bağlıdır. Xüsusilə süni intellekt və proqramlaşdırma istiqamətində özümü inkişaf etdirmək istəyirəm. Bakalavr təhsilimi uğurla başa vurmaq və bu müddət ərzində mümkün qədər çox bilik və praktiki bacarıq qazanmaqdır.

Gələcəkdə qazandığım bilik və təcrübəni ölkəmdə faydalı işlərə yönəltməyi, Azərbaycan və Rumıniya arasında əlaqələrin daha da inkişaf etməsinə töhfə verməyi arzulayıram.

**Oruc MUSTAFAYEV**

# Poetik pedaqogikanın milli-mənəvi əsasları



**Azərbaycan poeziyası yalnız bədii zövqün ifadəsi deyil, həm də xalqın mənəvi tərbiyə məktəbi, düşüncə intizamı və milli yaddaş məkanıdır. Bu poeziya əsrlər boyu insana sözün gözəlliyini, əxlaqın ucalığını, vətənə bağlılığın müqəddəsliyini və ana dilinin varlıq şərti olduğunu öyrətmişdir. Buna baxmayaraq, Azərbaycan poeziyasının pedaqoji fikrə təsiri haqqında hələ də kifayət qədər sistemli, konseptual və ümumiləşdirici tədqiqatların aparılmaması ciddi elmi boşluq kimi qalır. Bu çatışmazlıq ona gətirib çıxarmışdır ki, milli poeziyamızın içində yaşayan pedaqoji dəyərlər çox vaxt yalnız ədəbi-estetik meyarlarla izah edilmiş, onların tərbiyəvi və metodoloji gücü isə ayrıca pedaqoji sistem kimi qiymətləndirilməmişdir.**

## Mahirə Nağıqızı poeziyası tədqiqat işığında

Müstəqillik əldə etdiyimiz dövrdən, yəni 1991-ci ildən bu yana cəmiyyətdə az qala iki nəsil dəyişmişdir. Bu illər ərzində zaman yalnız təqvim vərəqlərini çevirməmiş, həm də düşüncə tərzlərini, ictimai münasibətləri və təhsil ehtiyaclarını yenidən yoğurmuşdur. Lakin bütün bu dəyişikliklərə baxmayaraq, milli pedaqoji fikir xəzinəmizin zəngin qaynaqları hələ də lazımınca üzə çıxarılmamış, öz sözümüzün işığında öz məktəbimizi izah etmək qüdrəti tam şəkildə formalaşmamışdır.

Halbuki Azərbaycan xalqının öz poeziyasında, dastanlarında, klassik irsində və maarifçi ədəbiyyatında insan tərbiyəsinə dair dərin, ardıcıl və milli xarakterli pedaqoji baxışlar mövcuddur.

Çağdaş poeziyamızda milli tərbiyə düşüncəsini, dilə və vətənə bağlılığı, ana obrazının mənəvi gücünü və yaddaş mədəniyyətini davam etdirən sənətkarların yaradıcılığı ayrıca pedaqoji baxışla təhlil olunmalıdır. Mən ixtisasca pedaqogika sahəsini təmsil etdiyim üçün şəxsiyyətinə, elmi mövqeyinə və poetik sözünün mənəvi işığına böyük dəyər verdiyim şairə Mahirə Nağıqızının yaradıcılığına məhz poetik pedaqogika bucağından baxmağı daha doğru hesab edirəm. “Poetik pedaqogika” anlayışı bəlkə də ədəbiyyatda hələ ayrıca termin kimi sabitləşməmişdir, lakin bu ifadə poeziyanın insanı tərbiyə edən, estetik zövqünü formalaşdıran, mənəvi dünyasını zənginləşdirən və milli yaddaşla bağını möhkəmləndirən gücünü ifadə etmək baxımından tamamilə yerində işlənə biləcək elmi-metaforik anlayışdır. Bu baxımdan Azərbaycan ədəbiyyatında bir neçə janr xüsusiyyətlərini yaradıcılığında mükəmməl şəkildə ifadə edən şairə Mahirə Nağıqızının yaradıcılığı klassik Azərbaycan ədəbi-pedaqoji ənənəsinin çağdaş mərhələdə davamı kimi xüsusi əhəmiyyət kəsb edir.

Nizami, Füzuli, Sabir, Cavid və Vurğun xətti Azərbaycan poetik pedaqogikasının sanki bir əlin beş barmağı kimi bir-birini tamamlayan, lakin hər biri ayrıca məna və istiqamət daşıyan beş əsas dayağını aydın göstərir. Nizami insanı kamilliyə aparan yolun elm, ədalət, zəhmət və mərhəmətdən keçdiyini öyrədir. Füzuli qəlbin tərbiyəsini önə çəkərək sevginin insanı saflaşdıran, dərinləşdirən və məsuliyyətli edən bir mənəvi qüvvə olduğunu göstərir. Sabir ictimai qüsurları açmaqla tərbiyənin yalnız fərdi deyil, həm də sosial xarakter daşıdığını sübut edir. Cavid isə insanın mənəvi ucalığını gözəllik, həqiqət və azadlıq idealları ilə əlaqələndirir. Səməd Vurğun isə vətən sevgisini, xalq ruhunu və milli ləyaqəti poetik tərbiyənin mərkəzinə gətirərək insanı torpağa, yurda və mənəvi məsuliyyətə bağlı şəxsiyyət kimi formalaşdırır.

Bu beş böyük sənətkarın yaratdığı poetik-pedaqoji xətt Azərbaycan sözünün yalnız estetik deyil, həm də tərbiyəedici, ruhlandırıcı və şəxsiyyət formalaşdırıcı gücünü ortaya qoyur. Onların hər biri milli düşüncəmizin ayrı-ayrı zirvəsi olsa da, birlikdə Azərbaycan insanını kamilliyə, mənəvi paklığa, ictimai ayıqlığa, ideala və vətən sevgisinə aparan böyük bir pedaqoji yol xəritəsi yaradır. Məhz bu yol xəritəsi çağdaş poeziyamızda da davam edir, yeni poetik nəfəsdə, yeni obrazlarda və yeni duyğu intonasiyasında öz varlığını qoruyur. Bu davamlılığın müasir mərhələdə diqqətəlayiq nümunələrindən biri də dəyərli şairə, alim, ictimai xadim Mahirə Hüseynovanın yaradıcılığıdır.

Şairə Mahirə Nağıqızının poetik ustalığının pedaqoji kökləri məhz bu böyük Azərbaycan ədiblərinin yaratdığı mənəvi fikir bulağından qaynaqlanır. Onun yaradıcılığında söz sadəcə ifadə vasitəsi deyil, insanı oyadan, yaddaşı silkələyən, dili sevdirən, vətəni ruhda yaşadan və əxlaqı saflaşdıran tərbiyə alətidir. Şairənin poetik dünyasında ana, dil, vətən, kənd, daş, ocaq və yaddaş obrazları bir-birindən ayrılmayan milli-pedaqoji anlayışlar kimi çıxış edir. Onun poeziyasındakı müəllimlik yalnız auditoriya ilə məhdudlaşmır, sözün özü müəllimə, obraz dərsə, bənd isə mənəvi tərbiyə vahidinə çevrilir.

“Ana dilim” şeirində ana dili yalnız ünsiyyət vasitəsi kimi deyil, xalqın tarixi, yaddaşı, mənliyi və nəsillərarası əmanəti kimi təqdim olunur. Şeirin bir bəndində ana dili dədə-baba yadigarı, tarixdən gələn səs və xalqın varlığını qoruyan müqəddəs əmanət kimi mənalandırılır. Həmin bənd pedaqoji baxımdan uşağa və gəncə dilin, sadəcə, danışıq qaydaları toplusu olmadığını, millətin ruhunu daşıyan canlı yaddaş olduğunu öyrədir. Burada dil duyumunun inkişafı milli şüurun formalaşması ilə birləşir və oxucu ana dilinə yalnız qrammatik vasitə kimi deyil, mənəvi borc kimi yanaşmağı öyrənir. Bu cür poetik yanaşma milli pedaqogika üçün örnəkdir, çünki dil sevgisini quru nəsihətlə deyil, obraz, ahəng və tarixi yaddaş vasitəsilə tərbiyə edir.

“Vətən” mövzulu şeirlərində Mahirə Nağıqızı vətəni torpaqdan daha geniş, insanın qəlbində, yaddaşında və vicdanında yaşayan müqəddəs mənəvi məkan kimi təqdim edir. Bu şeirlərdən bir bənddə vətən ana qucağı, doğma torpaq, ruhun sığınacağı və insanın özünü tanıdığı əbədi məkan kimi mənalandırılır:

**Bu vətən deyilən torpaq deyil ki,**
**Ananın dizinin yanı-vətəndir.**
**Başını qoymağa bir sinə varsa,**
**Ruhuna beşiksə, tanı, vətəndir.**

Göstərilən bu bənd pedaqoji üslub baxımından vətənpərvərlik tərbiyəsini şüarçılıqdan çıxararaq onu ailə, ana, torpaq və mənəvi məsuliyyət duyğusu ilə birləşdirir. Vətənpərvərlik burada yalnız bayraq, sərhəd və coğrafiya anlayışları ilə deyil, insanın daxili borcu, əxlaqi mövqeyi və milli ləyaqəti ilə izah olunur. Bu baxımdan Mahirə xanımın vətən poeziyası milli pedaqogikanın güclü nümunəsidir, çünki oxucuda vətəni sevməklə yanaşı, vətən qarşısında məsuliyyət daşımaq düşüncəsi formalaşdırır.

Ana mövzusuna həsr olunmuş şeirlərində Mahirə Nağıqızı insanın ilk məktəbinin ana qucağı, ilk müəlliminin ana nəfəsi və ilk mənəvi dərsinin ana sevgisi olduğunu elə poetik şəkildə göstərir ki, bu da onun poeziyasında tərbiyə düşüncəsinin quru nəsihət kimi deyil, sevgi, mərhəmət və mənəvi gözəllik üzərində qurulan incə pedaqoji estetika kimi təzahür etdiyini göstərir. Poetik pedaqogika ruhunda yazılmış bəndlərdə övladın anaya olan minnətdarlığı, vicdan hesabatı və mənəvi borcu ülvi duyğu kimi təqdim edilir. Bu bəndlər pedaqoji baxımdan ailə tərbiyəsinin milli xarakterini açır və göstərir ki, insanın əxlaqi formalaşması, ilk növbədə, ana sevgisini dərk etməkdən başlayır. Burada ana obrazı mərhəmətin, səbrin, fədakarlığın, halal zəhmətin və mənəvi paklığın canlı dərsliyinə çevrilir. Beləliklə, şairə emosional və əxlaqi tərbiyəni abstrakt nəsihət kimi deyil, oxucunun qəlbini hərəkətə gətirən səmimi poetik etiraf kimi təqdim edir.

Kənd, yurd və ocaq mövzulu şeirlərində Mahirə Nağıqızı doğma məkanı yalnız xatirə yeri kimi deyil, mədəni yaddaşın qorunduğu mənəvi məktəb kimi canlandırır. Bu xətt üzrə yazılmış bəndlərdə kənd yolu, dağ, bulaq, ocaq, ata-baba izi və doğma ev obrazları insanın milli kimliyini yaşadan tərbiyəvi işarələr kimi görünür. Həmin bəndlər pedaqoji baxımdan oxucuya kökdən ayrılmamağı, yurd yaddaşını qorumağı və keçmişlə gələcək arasında mənəvi körpü qurmağı öyrədir. Bu isə milli pedaqogikanın əsas prinsiplərindən biridir, çünki kökünü tanımayan insanın gələcəyə sağlam mənəvi dayaqla getməsi mümkün deyildir.

“Onun daş nağılı” şeirində poetik dünyasında daş obrazı susqun əşya olmaqdan çıxaraq yaddaşın, dözümün, ocağın və ata-baba yurdunun danışan simvoluna çevrilir. Əsərin bir bəndində daş keçmişin şahidi, ananın və ocağın yaddaşı, zamanın sükutla danışan dili kimi mənalandırılır. Bu bənd obrazlı təfəkkürün inkişafı baxımından çox qiymətlidir, çünki oxucu cansız görünən daşın içində tarix, ailə, yurd və mənəvi davamlılıq mənası görməyi öyrənir. Beləliklə, şairə estetik zövqü yalnız gözəlliyi duymaqla məhdudlaşdırmır, adi görünən əşyanın içində mənəvi dərinlik axtarmağı da pedaqoji vərdişə çevirir.

**Şairə Mahirə Nağıqızı yaradıcılığında estetik zövq sözün ahəngi, obrazın təmizliyi, duyğunun səmimiyyəti və milli ruhun poetik ifadəsi ilə formalaşır. Onun şeirlərində dil duyumu ana dilinin müqəddəsliyi ilə, milli-mənəvi dəyərlər vətən və ana obrazları ilə, obrazlı təfəkkür daş və ocaq simvolları ilə, emosional-əxlaqi tərbiyə isə sevgi, borc, sədaqət və yaddaş motivləri ilə dərinləşir. Bu poeziyada pedaqogika açıq nəsihət formasında deyil, sözün içindən süzülən mənəvi işıq, obrazların yaratdığı daxili tərbiyə və oxucunu səssizcə kamilliyə aparan poetik duyğu kimi görünür. Məhz buna görə Mahirə Nağıqızı yaradıcılığı Azərbaycan poetik pedaqogikasının çağdaş mərhələsində milli ruhu, ana dili sevgisini, vətən duyğusunu və insanın mənəvi saflığını incə bir bədii-estetik sistem daxilində yaşadan dəyərli poetik məkan kimi qiymətləndirilə bilər.**



**Pərvanə RZAYEVA,**
**pedaqogika üzrə fəlsəfə doktoru**

# “Məktəb, elm və ədəbiyyat”

## Regionlarda mütaliə mühitinin gücləndirilməsi strateji əhəmiyyət daşıyır

**Mayın 3-də Sumqayıt şəhəri Hacı Zeynalabdin qəsəbəsində yerləşən 6 nömrəli tam orta məktəbdə Azərbaycan Milli Elmlər Akademiyası, Mədəniyyət Nazirliyi və Abşeron-Xızı Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə “Məktəb, elm və ədəbiyyat” layihəsinin növbəti görüşü keçirildi.**



Tədbir Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad olunması və Dövlət Himninin səsləndirilməsi ilə başladı.

Məktəblilərin rəsm əsərlərindən ibarət sərgi qonaqlarda xoş təəssürat yaratdı. Sərgi ilə tanışlıq zamanı şagirdlərin yaradıcılıq potensialı və incəsənətə marağı xüsusi diqqət çəkdi.

Heydər Əliyevin elm və təhsilin inkişafına göstərdiyi diqqətdən, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu siyasətin uğurla davam etdirilməsindən bəhs edildi.

Layihənin rəhbəri, Milli Məclisin deputatı, filologiya elmləri doktoru Elnarə Akimova çıxışında “Məktəb, elm və ədəbiyyat” layihəsinin yaranma məqsədindən və onun əsas ideya xəttindən geniş bəhs etdi. O bildirdi ki, layihənin başlıca hədəfi region məktəblərində mütaliə mühitini gücləndirmək, uşaqları yazıçı və alimlərlə birbaşa ünsiyyətə gətirmək və kitabı yenidən gündəlik həyatın vacib bir hissəsinə çevirməkdir.



Daha sonra alimlər və yazarlar məktəb kitabxanasına kitablar hədiyyə etdilər. Bu təşəbbüs layihənin əsas məqsədinə - məktəblərdə mütaliə mühitinin gücləndirilməsinə xidmət edən praktik addım kimi dəyərləndirildi.

Görüşdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Milli Məclisin deputatları Elnarə Akimova və Mehriban Vəliyeva, Mədəniyyət Nazirliyinin Azərbaycan dili və ədəbiyyatı siyasəti şöbəsinin müdiri Vasif Qurbanzadə, Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının Hacı Zeynalabdin qəsəbəsi üzrə nümayəndəsi Lalə Hacıyeva, Sumqayıt şəhər təhsil sektorunun müdiri İman Ağayev, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Uşaq ədəbiyyatı" şöbəsinin əməkdaşları, uşaq yazarlarımız Rafiq Yusifoğlu, Reyhan Yusifqızı, Sevinc Elsevər, Əziz Sultan, şairlərdən İbrahim İlyaslı və Elvin Əlizadə iştirak edirdilər.

Tədbiri giriş sözü ilə açan Sumqayıt şəhər təhsil sektorunun müdiri İman Ağayev belə görüşlərin uşaqların mütaliəyə marağının artırılması baxımından mühüm əhəmiyyət daşıdığını vurğuladı. O qeyd etdi ki, kitabın məktəb həyatında yenidən əsas mövqeyə qayıtması üçün müəllimlərin, valideynlərin və ictimaiyyətin birgə səylərinə ehtiyac var.

Daha sonra söz alan Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli çıxışında uşaqlıq xatirələrinə qayıdaraq ilk dəfə dörd yaşında “Göyərçin” jurnalını oxuduğunu və həmin jurnalın onda mütaliəyə böyük maraq yaratdığını bildirdi.

İsa Həbibbəyli Azərbaycan maarifçilik tarixinin mühüm mərhələlərindən danışaraq XIX əsrin ikinci yarısını milli düşüncənin formalaşdığı, təhsilin və mədəniyyətin inkişaf etdiyi dövr kimi xarakterizə etdi.

Akademik Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə, Cəlil Məmmədquluzadə və digər maarifçi ziyalıların Azərbaycan cəmiyyətinin inkişafındakı xidmətlərini xüsusi vurğuladı. O qeyd etdi ki, bu şəxsiyyətlərin irsi bu gün də məktəb, elm və ədəbiyyat sahəsində aparılan işlərin ideya əsaslarından biri olaraq qalır.

Çıxış zamanı Ümummilli Lider

Elnarə Akimova qeyd etdi ki, müasir dövrdə informasiya bolluğu içində böyüyən uşaqlar üçün kitab oxuma vərdişinin formalaşdırılması xüsusi əhəmiyyət daşıyır: “Biz istəyirik ki, uşaq kitabı təkcə dərs vəsaiti kimi deyil, həyatının bir parçası kimi qəbul etsin. Kitab oxuyan uşaq düşünən uşaqdır, düşünən uşaq isə sabahın məsuliyyətli vətəndaşıdır. Bu baxımdan regionlarda mütaliə mühitinin gücləndirilməsi bizim üçün strateji əhəmiyyət daşıyır.”

Milli Məclisin deputatı Mehriban Vəliyeva çıxışında tədbirdə iştirak edən məktəblilərin fəallığını yüksək qiymətləndirdi. O qeyd etdi ki, uşaqların gözlərində kitaba olan marağı və sevinc hissini görmək son dərəcə təsirlidir: “Bu gün burada səslənən şeirlər, uşaqların hazırladığı proqram göstərdi ki, onlar bu görüşü səbirsizliklə gözləyiblər və böyük həvəslə hazırlaşıblar”.

Mədəniyyət Nazirliyinin Azərbaycan dili və ədəbiyyatı siyasəti şöbəsinin müdiri Vasif Qurbanzadə isə çıxışında kitabın və mütaliənin təbliğinin dövlətin mədəniyyət siyasətinin mühüm istiqamətlərindən biri olduğunu bildirdi.

Rəsmi çıxışlardan sonra yazarlar Rafiq Yusifoğlu, Reyhan Yusifqızı, Sevinc Elsevər, Əziz Sultan, İbrahim İlyaslı və Elvin Əlizadə uşaqlarla səmimi söhbət apararaq oxumağın, yazmağın və mütaliənin insan həyatındakı rolundan danışdılar.

Məktəblilər tanınmış yazarların şeirlərini səsləndirdilər, mahnılar oxudular, rəqs nömrələri nümayiş etdirdilər.

Tədbirin sonunda məktəbin direktoru Qönçə Səftərova çıxış edərək qonaqlara və təşkilatçılara minnətdarlığını bildirdi.

Beləliklə, Sumqayıtda keçirilən növbəti görüş bir daha göstərdi ki, məktəb, elm və ədəbiyyatın vəhdəti təkcə maarifçilik missiyası daşımır, həm də uşaqlarda oxumaq, düşünmək və öyrənmək həvəsini gücləndirən mühüm ictimai platformadır. Layihənin əsas uğuru da məhz budur: kitabı yenidən uşaqların gündəminə gətirmək və onu həyatın vacib dəyərlərindən birinə çevirmək!

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Bakı Avrasiya Universiteti

## 2026-cı il üçün fəlsəfə doktoru proqramı üzrə doktoranturaya

## QƏBUL ELAN EDİR:

Doktoranturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 may 2026-cı il tarixli 320s nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2026-cı il üçün doktorant hazırlığı üzrə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə, elmi müəssisə və təşkilatlara qəbul”dan çıxarışa əsasən aşağıdakı ixtisaslar üzrə aparılır.

| İxtisas şrifti | Elm sahələri və ixtisaslar | Doktorantura (əyani) | Doktorantura (qiyabi) | Ödənişli əsaslarla hazırlıq üzrə illik haqlarının məbləği (manatla) |
|---|---|---|---|---|
| 5302.01 | Ekonometriya: iqtisadi statistika | 1 | | 1700 |
| 5308.01 | Ümumi iqtisadiyyat | 1 | | 1700 |
| 5312.01 | Sahə iqtisadiyyatı | 1 | | 1700 |
| 5704.01 | Dil nəzəriyyəsi | 1 | 1 | 1700 |
| 5706.01 | Azərbaycan dili | 1 | 1 | 1700 |
| 5708.01 | German dilləri | 1 | 1 | 1700 |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 1 | | 1700 |
| 5719.01 | Folklorşünaslıq | 1 | | 1700 |

**1.** Doktoranturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər müsabiqə əsasında qəbul olunurlar. Fəlsəfə doktoru proqramı üzrə doktoranturada əyani təhsil 3 il, qiyabi təhsil 4 ildir.

**2.** Doktorant qəbulu xarici dil, fəlsəfə və ixtisas fənni imtahanlarının nəticəsi əsasında keçirilir. Xarici dil imtahanından müvəffəqiyyətlə keçən şəxslər fəlsəfədən imtahana buraxılırlar. Fəlsəfədən məqbul alan şəxslər ixtisas imtahanına buraxılırlar. Xarici dildən imtahanda iştirak etməyənlər fəlsəfə üzrə imtahana, fəlsəfə üzrə imtahanda iştirak etməyənlər isə ixtisas fənnindən imtahana buraxılmırlar.

**3.** Doktoranturaya sənədlərin qəbulu: 19 may - 09 iyun 2026-cı il tarixlərində keçirilir.

**4.** Doktoranturaya sənəd qəbulu “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TMİS) vasitəsilə elektron qaydada keçirilir. Namizədlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olub, orada “Ali və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı” xidmətini seçərək qeydiyyatdan keçirlər.

**Ünvan:** AZ 1110, Bakı şəhəri, İsa bulağı küçəsi, giriş 18
(əvvəlki akademik Həsən Əliyev küç. 135 A)
Əlavə məlumat üçün: +99412 564-63-67;
+99412 564-63-65 (daxili nömrə 118)
**info@baau.edu.az**


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu,
Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 32529 **Sifariş:** 718

**Məsul növbətçi:** S.Kərimova


# Etibarsız sayılır

**Göyçay şəhər** R.Rza adına 1 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Mahmudlu Məhəmmədəli Aqil oğluna verilmiş A-551489 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 3 nömrəli məktəb-liseyi 1991-ci ildə bitirmiş Həsənova (Məsimova) Aygün Zeynalabdin qızına verilmiş A-119332 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2022-cı ildə Hacıyeva Əfsanə Filman qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2015-ci ildə İslamzadə Elməddin İman oğluna verilmiş A-075658 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şəki Musiqi Kolleci** (Şəki Dövlət Regional Kollec) tərəfindən 2005-ci ildə Mustafayeva Gümanə Tahir qızına verilmiş BB-II-019552 nömrəli diplom itdiyi üçün etibatsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2022-ci ildə Kazımlı Fidan Ceyhun qızına verilmiş C-161433 nömrəli bakalavr diplomu və diploma əlavə tapıldığı üçün etibarlı sayılır.

**Bakı Qida Sənayesi Kolleci** tərəfindən 2017-ci ildə Arazlı İlyanə Vüqar qızına verilmiş AA-097581 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Şıxbəy kənd ümumi orta ümumtəhsil məktəbin IX sinfini 1999-cu ildə bitirmiş İsmayılova Gülnar Sərdar qızına verilmiş B-243248 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Soltankənd kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Əzizova Həmidə Mübariz qızına verilmiş A-680405 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 1 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Şükürov Orxan Ağalı oğluna verilmiş B-516277 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul rayon** Talış kənd Ə.Əliyev adına tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Həsənov Röyal Rafael oğluna verilmiş VB-008168 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2020-ci ildə Əliyev Biləndər Bəndər oğluna verilmiş C-089136 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibatsız sayılır.

**Şəmkir rayon** Füzuli qəsəbə tam orta ümumtəhsil məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Ayvazov Vüqar Sərvər oğluna verilmiş B-441512 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 197 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Şahbazova Təhminə Şahbaz qızına verilmiş B-343198 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Bərgüşad kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Səmədov Niyazi Qurbanəli oğluna verilmiş 041756 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Texniki Kolleci** tərəfindən 2008-ci ildə Süleymanova İlahə Xanlar qızına verilmiş BB-II-078842 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 26 nömrəli Fizika-riyaziyyat və informatika təmayüllü məktəb-liseyi 2005-ci ildə bitirmiş Kərimova Gülmira Elxan qızına verilmiş 137531 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Qarayev Bəhram Mehman oğluna verilmiş E-392786 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 106 nömrəli tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirimiş Ağayeva Könül Ərrəhmət qızına verilmiş B-381845 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şuşa Musiqi Kolleci** tərəfindən 2013-cü ildə Abbasova Ülviyyə Eldar qızına verilmiş AA-032965 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 234 nömrəli tam orta ümumtəhsil məktəbi 2003-cü ildə bitirmiş Məmmədova Seyranə Eldar qızına verilmiş 677764 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 178 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Daşdəmirov Vidadi Əhliman oğluna verilmiş A-191904 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2016-cı ildə Əliyeva Günay Fikrət qızına verilmiş A-111654 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 11 nömrəli tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Rəhimova (Vəliyeva) Aidə Vahid qızına verilmiş B-536339 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə və 2005-ci ildə verilmiş B-220233 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**5 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2015-ci ildə Yusifova İlhamə Fəzail qızına verilmiş A-062294 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Soyuqbulaq kənd tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Yusubov Rövşən İsə oğluna verilmiş A-126559 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Əliyev Səməd Əhməd oğluna verilmiş E-223284 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 19 nömrəli tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Hacıyev Rizvan Alim oğluna verilmiş A-522789 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2013-cü ildə İbrahimov Elnur Elçin oğluna verilmiş A-000744 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2021-ci ildə Mustafayeva Samirə Rövşən qızına verilmiş C-094840 nömrəli bakalavr diplomu və diploma əlavə, 2023-cü ildə verilmiş AM-055771 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Daş Salahlı kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2011-ci ildə bitirmiş Sofuyeva Günel Yasin qızına verilmiş 057996 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Bığır kənd 3 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Şəfiyeva Anarə İntizam qızına verilmiş A-995286 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Miskinli kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbin VIII sinfini 1989-cu ildə bitirmiş Mehdiyev Alay Əhməd oğluna verilmiş 495058 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şamaxı şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Zahidova Ləman Ağazahid qızına verilmiş B-228868 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zəngilan rayon** 7 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Əlizadə Turqay Sərvər oğluna verilmiş E-490288 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universitetini** 2020-ci ildə bitirmiş Tabbaa Anas Tamama 2022-ci ildə verilmiş C-080529 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir Tibb Kolleci** tərəfindən 2022-ci ildə Eminova (Qasımova) Nəzrin Kamil qızına verilmiş AA-168912 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağsu şəhər** 1 nömrəli məktəb-liseyi 2008-ci ildə bitirmiş Bəşirzadə Kənan İlqar oğluna verilmiş B-541987 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağsu rayon** Rəhimli kənd tam orta məktəbin IX sinfini 2020-ci ildə bitirmiş Əzizova Mətanət Bəxtiyar qızına verilmiş C-375878 nömrəli ümumi orta təhsil haqqında attestat və 2021-ci ildə verilmiş E-384697 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Abdullayev Nazim İsmət oğluna verilmiş 461995 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 18 nömrəli tam orta ümumtəhsil məktəbi 2025-ci ildə bitirmiş Əbilzadə Namid Balabəy oğluna verilmiş E-786280 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qərbi Kaspi Universiteti** tərəfindən 2021-ci ildə Hüseynbəyli Gülşən Əvəz qızına verilmiş CN-109117 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Nazırlı kənd tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Cəfərova Nərmin Namiq qızına verilmiş A-351818 nömrəli ümumi orta təhsil attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kolleci** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollec) tərəfindən 2002-ci ildə Hüseynova İndira Rafik qızına verilmiş AB-II-083683 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 151 nömrəli tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Hüseynzadə Fikrət Hikmət oğluna verilmiş E-213031 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 61 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Məmmədli Cəbrayıl Azər oğluna verilmiş A-516461 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xırdalan şəhər** 7 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2021-ci ildə bitirmiş Şirinov Rəvan Ruslan oğluna verilmiş C-564093 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2019-cu ildə bitirmiş Poladov Ruslan Nurəli oğluna verilmiş C-400196 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Çuxanlı kənd tam orta ümumtəhsil məktəbi 2010-cu ildə bitirmiş Səməndərova İnsaf Əmir qızına verilmiş B-731018 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** Ə.Kürçaylı adına 7 nömrəli texniki və təbiət fənləri təmayüllü liseyi 2013-cü ildə bitirmiş Əsədov Əsəd Qədəmşah oğluna verilmiş A-208996 nömrəli tam orta təhsil haqqında attestat və 2025-ci ildə verilmiş E-757269 nömrəli tam orta təhsil haqqında dublikat attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Ali Birləşmiş Komandanlıq Məktəbi** tərəfindən 1996-cı ildə Nəcəfov Allahverdi Humay oğluna verilmiş 360 nömrəli diplom əvəzi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Liseyi** 2018-ci ildə bitirmiş Söhrabzadə Sərvin Sərvan oğluna verilmiş E-089833 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kolleci** tərəfindən 2014-cü ildə Həsənova Gültən Elşad qızına verilmiş AA-041725 nömrəli subbakalavr diplomu tapıldığı üçün etibarlı sayılır.

**Ağdam rayon** Zəngişalı kənd tam orta məktəbi 1996-cı ildə bitirmiş Abbasova Aynurə Xudayar qızına verilmiş 097974 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş Dövlət Humanitar Kolleci** tərəfindən 2014-cü ildə Rəhimli Ayşən Tərlan qızına verilmiş AA-046085 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2023-cü ildə Əliyev Əjdər Yalçın oğluna verilmiş C-200533 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** təbiət elmləri təmayüllü gimnaziyanı 2010-cu ildə bitirmiş Hacıyev Tural Kamet oğluna verilmiş B-698925 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi** məktəbi tərəfindən 1988-ci ildə Şirinova Mehriban Yaşar qızına verilmiş MT-I-272762 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 5 nömrəli tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş Şükürov İlkin Orxan oğluna verilmiş E-670129 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 146 nömrəli tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş Qurbanov Rüstəm Arzuman oğluna verilmiş E-656801 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayon** Qızılca kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Nəbiyev Anar Ramazan oğluna verilmiş A-785442 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 214 nömrəli tam orta ümumtəhsil məktəbi 2014-cü ildə bitirmiş Həsənov Murad Tərlan oğluna verilmiş A-299824 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2016-cı ildə İbrahimli Nüsrət Fikrət oğluna verilmiş A-092454 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2024-cü ildə Nadirli Yunis Saleh oğluna verilmiş C-232857 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Şəhriyar kənd tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Qurbanova (Nəcəfova) Xumar Kamal qızına verilmiş A-280812 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 3 nömrəli peşə liseyini 2019-cu ildə bitirmiş Bəkir Nicat Nurəddin oğluna verilmiş A-119869 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.